*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 9 aprel 2016-cı il № 26 (2041) Qiyməti 25 qəpik


Ali Baş Komandan İlham ƏLİYEV:

*Bizim qəhrəman döyüşçülərimiz nəinki təxribatın qarşısını ala bildilər. Eyni zamanda daha əlverişli hərbi mövqelərə malik oldular. Bu gün təmas xəttində Azərbaycanın üstünlüyü daha da möhkəmləndi. Aparılan hərbi əməliyyat nəticəsində, - onu da qeyd etmək istəyirəm ki, bu əməliyyat təxribata cavab olaraq aparılmışdır, - biz böyük hərbi qələbəni qazandıq. Bu münasibətlə Ordumuzu, bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm.*



# Döyüş tapşırığı yerinə yetirildi

***Döyüşdən yenicə qayıtmış əsgərlər silahlarını təmizləyirlər. Hərbçinin silahı həmişə tərtəmiz, hər an atəş açmağa hazır olmalıdır. Ona görə də əsgərlər yorğun olmalarına baxmayaraq, silahlarına qulluq göstərirlər. Bu səhnəyə tamaşa etdikcə sevimli şairimiz Səməd Vurğunun bir misrası yada düşür: "Silahını təmiz saxla, atını da tumarla."***

Son əməliyyatlarda fəal iştirak edən zabitlərdən biri də leytenant Cahangir Eyvazovdur. İndi onunla qarşı-qarşıya oturub söhbət edirəm. Zabitin üz-gözündən cəsurluq və məğrurluq yağır. Öyrəndim ki, erməni işğalçıları mövqelərimizə hücum edəndə o, qoynunda dünyaya göz açdığı Naxçıvan Muxtar Respublikasında məzuniyyətdə olub. Ermənilərin hücum xəbərini eşidən kimi təcili olaraq doğma hərbi hissəyə - əsgərlərinin yanına qayıdıb.

- Məzuniyyətdə olsam da, tez-tez hərbi hissə ilə əlaqə saxlayırdım. Aprelin ilk günlərində zabit yoldaşımla danışanda o bildirdi ki, erməni qəsbkarları mövqelərimizə hücum edib, - deyə leytenant Cahangir Eyvazov söhbətə başladı. - Xəbəri eşidən kimi vaxt itirmədən yola çıxdım. Hərbi hissəyə çatan kimi silahımı götürüb döyüşə yollandım. Talış kəndində düşmən ordumuzun güclü əks-həmləsi ilə geri oturdulmuşdu, mövqe döyüşləri gedirdi. Əsgərlərimlə çiyin-çiyinə vuruşmağa başladım. Qısa müddətdə işğalçıları mövqelərindən geri oturtduq.

Qəflətən düşmən bizi minaatanlardan atəşə tutdu. Mərmilər yaxınlığımıza düşüb yeri titrədir, torpağı silkələyirdi. Atəş səslərindən qulaq tutulurdu. Yaxşı ki, yaxınlığımızda təbii manelər var idi. Qarşı tərəfdən minaatan atəşlərinə ara verilən kimi hücumu davam etdirdik. Torpaqlarımızı azad etmək istəyi o qədər güclü idi ki, ermənilər qarşımızda dayana bilmədi, silahlarını da atıb qaçmağa başladılar.

Qarşımıza qoyulan döyüş tapşırığı yerinə yetirildiyi üçün qürurum yerə-göyə sığmırdı. Bu döyüşdə əsgərlərimiz əsl hünər və rəşadət göstərdilər. Qazandığımız uğur bir daha sübut etdi ki, Azərbaycan əsgəri güclüdür, qüdrətlidir və Ali Baş Komandanın əmri ilə torpaqlarımızı azad etmək iqtidarındadır. Silahlı Qüvvələrimizin qazandığı bu uğurlar, inanırıq ki, davamlı olacaq.

Leytenant Cahangir Eyvazovun və onun əsgərlərinin öyünməyə tam haqqı çatır, çünki qələbədə onların da payı vardır.

**"Azərbaycan Ordusu"**



Yüksəkliyə sancılmış bayraq

3-cü səhifədə



Düşmənə torpaqlarımızda yer yoxdur

5-ci səhifədə



"Şəhidlər ölməz, Vətən bölünməz!"

6-cı səhifədə



Ordumuzun aprel zəfəri

10-cu səhifədə

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Respublikasının Müdafiə naziri ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşüb

***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov aprelin 6-da ölkəmizdə səfərdə olan ATƏT-in Minsk Qrupunun həmsədrləri İqor Popov (Rusiya Federasiyası), Ceyms Uorlik (ABŞ), Pyer Andryö (Fransa Respublikası) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik ilə görüşüb.***



Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində baş verən son hadisələrlə bağlı vəziyyətin müzakirə edildiyi görüşdə general-polkovnik Zakir Həsənov düşmən tərəfindən ölkəmizin yaşayış məntəqələrinin və mülki əhalinin atəşə məruz qalması faktlarını qarşı tərəfin diqqətinə çatdırıb.

Müdafiə naziri bildirib: "İtkilərə və günahsız insanların arasında ölüm hallarına görə dərin təəssüf hissi keçiririk. Biz qarşı tərəf kimi uşaq və qadınlarla müharibə aparmırıq. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmrinə əsasən, eləcə də Azərbaycan xalqının sülhsevərliyini nəzərə alaraq, hərbi əməliyyatları dayandırdıq. Amma əldə edilmiş razılaşmaya baxmayaraq, Ermənistan ordusunun bölmələri tərəfindən atəşkəs rejimi yenə də pozulmaqdadır."

Azərbaycanın heç vaxt işğal faktı ilə barışmayacağını və ərazilərin düşməndən azad edilməsi hüququnu özündə saxladığını bildirən general-polkovnik Zakir Həsənov həmsədrlərin diqqətinə çatdırıb ki, baş vermiş son hadisələrdə Silahlı Qüvvələrimizin məqsədi təmas xəttinə yaxın Azərbaycan kəndlərinin düşmən tərəfindən atəşə tutulmasının qarşısını almaq və həmin atəş nöqtələrinin məhv edilməsi olub. Azərbaycan Ordusunun düşmənə qarşı həyata keçirdiyi tədbirlər ancaq müdafiənin ön xəttində olan qüvvələrimizin cəlb edilməsi ilə icra edilib.

Müdafiə naziri döyüş toqquşmasında böyük itkilərə məruz qalan erməni hərbi qulluqçularının, eləcə də müxtəlif yerlərdən cəlb edilən muzdluların silah-sursatlarını ataraq öz mövqelərindən qaçdığını bildirib. General-polkovnik Zakir Həsənov vurğulayıb ki, Azərbaycan Silahlı Qüvvələrinin bölmələri hazırda işğaldan azad edilmiş ərazilərdə möhkəmləndirmə tədbirlərini davam etdirirlər. Nazir bir daha qonaqların diqqətinə çatdırıb ki, münaqişənin tezliklə nizamlanmasının yeganə çıxış yolu işğalçı qüvvələrin torpaqlarımızdan çıxarılmasındadır.

Tərəflər arasında atəşkəs razılaşmasının əldə olunmasını alqışladıqlarını bəyan edən həmsədrlər bildiriblər ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsi ilə bağlı aparılan danışıqlar daha intensiv olmalı və münaqişənin tezliklə həlli istiqamətində mühüm addımlar atılmalıdır.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycanda akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşeləri və beynəlxalq təşkilatların nümayəndələri üçün brifinq təşkil olunub



Aprelin 8-də Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində xarici dövlətlərin Azərbaycan Respublikasındakı səfirlikləri nəzdində fəaliyyət göstərən hərbi attaşeləri, Hərbi Attaşelik aparatlarının, eləcə də beynəlxalq təşkilatların (BMT, Avropa İttifaqı və Beynəlxalq Qızıl Xaç Komitəsi) nümayəndələri üçün "Aprelin 1-dən 7-dək qoşunların təmas xəttində yerləşən Azərbaycanın yaşayış məntəqələrinə və vətəndaşlarına qarşı erməni bölmələrinin təxribat fəaliyyətləri"nə dair brifinq keçirilib.

Brifinqdə Hərbi Attaşelik aparatlarının və beynəlxalq təşkilatların nümayəndələrinə erməni bölmələrinin Azərbaycanın yaşayış məntəqələrini ağır silahlardan aramsız atəşə tutması nəticəsində yerli infrastruktura dəymiş böyük ziyan, eləcə də mülki əhali arasında ölən və yaralananlar barədə faktlar əsasında hazırlanmış məlumatlar təqdim edilib.

Eyni zamanda, xarici ölkələrin nümayəndələrinə Ermənistanın Azərbaycana qarşı apardığı informasiya müharibəsi çərçivəsində hərbi qulluqçularımızın erməni əhalisinə qarşı guya aqressiv hərəkətləri barədə erməni tərəfinin yaydığı dezinformasiya xarakterli materialların saxtalığını sübut edən dəlillər, son hadisələrlə əlaqədar reallığı əks etdirən materiallar təqdim olunub.



Sonda iştirakçıların sualları cavablandırılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## "Ermənistan işğal altındakı ərazilərimizi tərk etməsə, hələ çox "sürprizlər"lə qarşılaşacaq"

Ermənistan Respublikasının prezidenti Serj Sarkisyan, eləcə də bu dövlətin yüksək çinli hərbi rütbəliləri və müxtəlif ekspertlərinin son döyüşlərdən sonra Azərbaycan Silahlı Qüvvələrinin gücünü, qüvvəsini, əsgərinin rəşadətini etiraf etməsi, həqiqətən, düşmənin nə qədər qorxu və vahimə içində olmasını bir daha göstərdi və sübuta yetirdi.

Bunu AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı Ermənistanın hərbi-siyasi rəhbərliyinin Azərbaycanın gücü barədə fikirlərinə münasibət bildirərkən deyib.

"Bu gün ordumuz Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və dövlətimizin diqqət və qayğısı ilə hərtərəfli əhatə olunub. Silahlı Qüvvələrimiz ən müasir silah-sursat, döyüş texnikası, elmin ən son nailiyyətləri ilə hazırlanmış yüksək dəqiqlikli döyüş sursatları, düşmənlə birbaşa kontaktda olmadan onu uzaq məsafədən məhv etməyə qadir digər hərbi vasitələrlə təchiz edilib.

Silahlı Qüvvələrimizin son döyüşlərdə düşmənə qarşı tətbiq etdiyi vasitələr hərbi potensialımızda olanların yalnız cüzi bir hissəsidir. Əgər erməni tərəfi bizə qarşı təxribatları yenə də davam etdirərsə və işğal altındakı əraziləri tərk etməzsə, onları hələ çox "sürprizlər" gözləyəcək. Ordumuzun silahlanmasında olan döyüş texnikası, silah və sursatlar imkan verir ki, düşmənə qarşı daha dəqiq, dağıdıcı gücə malik vasitələrlə onu sülhə məcbur edərək torpaqlarımızın azad olunmasını təmin edək.

Silahlı Qüvvələrimizin, o cümlədən xalqımızın döyüş ruhu, qələbə əzmi yüksək səviyyədədir və biz düşmənin istənilən təxribatına layiqli cavab verməklə bu haqq işində onu məhv edib torpaqlarımızı işğaldan azad etməklə qələbə çalacağıq", - deyə V.Dərgahlı bildirib.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***8 aprel 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan və iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 110 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Voskepar, Barekamavan, İcevan rayonunun Berkaber, Paravakar kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Məzəm, Qaymaqlı, Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində, Krasnoselsk və Sisian rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy və Culfa rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Tərtər rayonunun Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Şıxlar, Cəvahirli, Sarıcalı, Kəngərli, Novruzlu, Şuraabad, Yusifcanlı, Qaraqaşlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitinə uyğun olaraq, düşmənin mövqelərinə və səngərlərinə 114 dəfə atəş zərbəsi endirib.

Cəbhədən reportaj

# Yüksəkliyə sancılmış bayraq

***Aprelin 1-dən 2-nə keçən gecə Ermənistan silahlı birləşmələrinin artilleriya silahlarından bütün cəbhə boyu mövqelərimizə, kənd və qəsəbələrimizə zərbə endirməsi, xüsusilə dinc əhalini kəmfürsətcəsinə hədəf seçməsi hər birimizin səbr kasasını daşırdı. Düşmənin intensiv atəş zərbələri altına düşmüş iki mülki vətəndaşımız həmin günlərdə həlak oldu, 10 nəfər isə ağır yaralandı.***




Azərbaycan Silahlı Qüvvələrinin cavabı yetərincə sərt oldu. Yaşayış məntəqələrimizi atəş altında saxlayan yüksəkliklərdəki düşmən mövqelərini birdəfəlik susdurmaq üçün ordumuz hərəkətə keçdi. Qısa zamanda Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrilə cəsur Azərbaycan oğulları Tərtər, Goranboy və Füzuli rayonları istiqamətində təhlükə obyekti olan düşmən mövqelərini ələ keçirərək həmin yüksəkliklərdə möhkəmləndi. Ən yüksək yerlərdə Azərbaycanın üçrəngli bayrağı əzəmətlə dalğalanmağa başladı.



Ordumuzun uğurlu əməliyyatları barədə xoş xəbərlər tezliklə ölkəmizə yayıldı, onun sərhədlərini aşdı. Sevincdən insanlar binaların eyvanlarında üçrəngli bayrağımızı asdı, minlərlə gənc, tələbə, hətta yaşlı insanlar, veteranlar ordumuza dəstək üçün cəbhəyə getmək barədə Ali Baş Komandana, Müdafiə nazirinə təkidlə müraciət etdilər.

Bəs cəbhədə nə baş verirdi? Ordumuzun son döyüşlərdən sonra ovqatı necə idi? Məlumatları ilk mənbələrdən almaq, hər şeyi öz gözlərimizlə görmək məqsədilə cəbhəyə yola düşdük.

Sinoptiklər havanın buludlu olacağını söyləsələr də, seyrək buludların arxasından gün çıxıb. Sərin yaz havasının xoş, mülayim olması adamın ovqatını təzələyir.

Hərbi hissənin qərargahında səhər tezdən Müdafiə Nazirliyindən gəlmiş zabitlərlə UAZ-a minib ön xəttə tələsirik. Təbii ki, hamının nəzəri yola dikilsə də, belə məqamda zabitlərin düşüncələrinə hakim və bütün söhbətlərin məzmunu təmas xəttində baş verən hadisələrdir.

Maşında qısa sükutu hərbi hissənin zabiti Vüsal Hüseynov pozur:

- Hər şey sabitləşməyə doğru gedir. Bölmələrimiz düşmənin təxribat mənbəyinə çevrilmiş mövqeyini ələ keçirib. Əvvəlcə ermənilər cəhd etdilər ki, yüksəkliyi qaytarsınlar, ancaq ordumuzun güclü atəşinə məruz qaldılar. Xeyli itki verdikdən sonra geri çəkilməyə məcbur oldular. Düşmən artıq hiss etdi ki, daha o yerə qayıtması mümkün deyil. Atışmalar davam etsə də, bölmələrimiz həmin yüksəklikdə möhkəmləndirmə işləri aparırlar.

Yolboyu bir neçə kənddən keçirik. Sakinlər gündəlik təsərrüfat qayğıları ilə məşğuldurlar. Asfaltın kənarında mağazalar açıqdır: kimi alver edir, kimi yük daşıyır, kimi sadəcə harasa tələsir. Üçbir-beşbir dayanıb söhbət edən kişilər hərbi avtomobili maraq və rəğbət dolu nəzərlərlə süzürlər. Doğrusu, onların gözlərində Azərbaycan əsgərinə ehtiramı hiss etmək olduqca xoşdur.

Cəbhəyə yaxın kəndlərin bu narahat günlərdə əmin-amanlığı əslində Silahlı Qüvvələrimizə inamdan, güvəncdən irəli gəlir. Hamı yaxşı başa düşür ki, ordumuz 90-cı illərin nizamsız dəstələri deyil, artıq hərbi hissələrimizdə intizam da, güc-qüvvət də yetərincədir.

Yolayrıcında dayanmış hərbi yol polisimizin sarı gödəkcəli əməkdaşları avtomobillərin hərəkətini tapşırığa uyğun nizamlayırlar.

Bizim avtomobili asayiş keşikçiləri dərhal buraxırlar və yolumuza davam edirik.

Növbəti yolayrıcında da hərbi və mülki polis əməkdaşları dayanıblar. Buradan mülki avtomobilləri qabağa buraxmırlar. Qarşımızdan təkəm-seyrək hərbi yük avtomobilləri gəlir. Təpəliklərdən qıvrılıb düzənliyə çıxan torpaq yolda hiss edirəm ki, ön xəttə yaxınlaşırıq. Müxtəlif atəş məsafəli artilleriya qurğuları yamaclarda döyüşə hazır vəziyyətdədir.

Havada bayaqdan mövcud olan sükutu atəş səsləri pozur.

- Minaatandır, - zabit Vüsal Hüseynov deyir. - Ermənilər tərəfdən atıldı.

Ani vaxtdan sonra yenə guppultu eşidilir.

Bir az keçmiş haradasa yaxınlıqdan artilleriya silahları hərəkətə gəlir. Elə bil, davamlı olaraq şimşək çaxır.

- Bu artıq bizimkilərdir, - zabit Rövşən Qarayev deyir. - Dığaların cavabını veririk.

Bir qədər sonra dərəyə burulub əyri-üyrü yolla artıq baharın nəfəsilə yaşıllaşmış yamaca qalxırıq. Son günlərdə cəbhənin bu bölgəsində maraqlı hadisələr cərəyan edib. Vətən oğulları sarsıdıcı zərbələri ilə düşməni xeyli geriyə atıblar.

Qarşımıza tez-tez toz-torpaq içində olan zirehli texnika çıxır. Hərbi əməliyyatın uğurla başa çatmasında onların payı çoxdur. Heyət üzvləri səhər tezdən ya tanklara, PDM-lərə qulluq göstərir, mərmi doldurur, ya da sadəcə istirahət edirlər.

Hərbi bölmənin qarşısında əsl cəbhə mənzərəsinin şahidi oluruq. Hərbçilərin bir qismi döyüş növbəsinə yola düşməyə hazırlaşır. Onlar silahlarını təmizləyir, patron doldurduqları daraqları zirehli gödəkçələrinin ciblərinə qoyurlar.

Qarşıdakı şiş yüksəklikdə Azərbaycanın üçrəngli bayrağının əzəmətlə dalğalandığını görürük. İki gün öncə ora düşmənin təxribat yuvası idi. Döyüşçülərimiz erməni mövqelərini ələ keçirəndə qürur yerimiz olan trikolorumuzu da yüksəkliyə sancmışdılar.

Diqqətimi çəkən başlıca məqam döyüşçülərimizin çox yüksək ovqatı idi. Sanki döyüş postuna, güllə qabağına deyil, istirahətə gedirdilər. Düşmən mövqelərini ələ keçirmək onlarda döyüş ruhunu qat-qat yüksəltmişdi. Əsgərlərimiz də deyib-gülür, əyin-başlarını, silah-sursatlarını qaydaya salırdılar.



- Vəziyyət necədir?

Döyüşçülərə ümumi sual verirəm. Hamısı sanki bir ağızdan: - Bomba kimi! - gülə-gülə cavab verirlər.

Vətən oğulları ilə söhbət edərkən mənə bir şey olduqca xoş gəlir. Adətən hərbi hissələrə gedərkən barələrində yazmaq üçün zabitlərdən ən yaxşı döyüşçüləri xəbər alırıq. Ancaq bu dəfə döyüşçülər öz komandirlərini nümunə göstərdilər.

Düşmən mövqelərinin götürülməsində iştirak etmiş oğullar hücumun uğurla planlaşdırıldığını söyləyirlər. Qarşıdakı postları döyüşçülərimiz minimum itkilərlə ələ keçiriblər. Şücaət göstərmiş döyüşçüləri soruşanda, hamı bir səslə mayor Nəsimi Şıxəliyevin adını çəkir. Onun barəsində mütləq yazmağı məsləhət görürlər, əsl qəhrəman olduğunu dilə gətirirlər.

Doğrudan da, bu döyüşlərdə Azərbaycan zabitləri əsl fədakarlıq göstərərək şəxsi heyətə nümunə olublar. Bu qələbənin əldə edilməsində onların zəhməti böyükdür.

Bizə verilən məlumata görə, zabit Bəkir Orucov əməliyyatın hazırlanıb həyata keçirilməsinə bilavasitə rəhbərlik edib.

Şükür Həmidov, Vilayət Quliyev, Nemət Məmmədov, Seymur Həbibullahov və digər zabitlər bu döyüşlərdə bölmələrimizə şəxsi şücaət və nümunə göstəriblər.

Zabit Seymur Həbibullahovla burada, ön xətdə görüşürük. O düşmən postlarının ələ keçirilməsində şəxsi heyətə rəhbərlik edib. Xeyli vaxtdır ki, tanıdığım təcrübəli zabit deyir:

- Düşmən ətraf əraziləri, mövqelərimizi tez-tez atəşə tuturdu. Dinc sakinlərin təsərrüfat işlərilə məşğul olmasına imkan vermirdilər. Öz ərazilərimizdə işğalçı ordunun bu hərəkətlərinə dözmək artıq mümkün deyildi. Ona görə yuxarı komandanlığın əmrilə əməliyyat keçirib həmin yüksəklikləri düşməndən təmizlədik. Bu istiqamətdə onların iki əsas mövqeyi vardı. Döyüşçülərimiz yüksək ovqatla həmin postlara həmlə edərək ermənilərə gözlərini açmağa imkan vermədilər. Hər iki postu götürdük. Düşmən çoxsaylı itki verib geri çəkilməyə məcbur oldu. Mən cəsur əsgərlərimizlə fəxr edirəm.

**(Ardı 4-cü səhifədə)**

# Yüksəkliyə sancılmış bayraq

(Əvvəli 3-cü səhifədə)

Zabitə görə, sonrakı günlərdə düşmən həmin mövqeləri qaytarmaq üçün yeni cəhdlər edib. Çoxsaylı qüvvə və texnika ilə hücuma keçsələr də, aldıqları zərbələrdən sarsılıblar. İki gün ərzində döyüşçülərimiz təkcə bu ərazidə düşmənin tankını, onlarla əsgərini məhv edib. Ermənilər silah və sursatlarını ataraq qaçmağa üz qoyublar. Postlarda, səngərlərdə xeyli silah qənimət kimi ələ keçirilib.

Ermənilərin atdığı minaatan mərmisi döyüşlər gedərkən zabit Həbibullahovun yanında partlayıb və zabit bir neçə qəlpə yarası alıb. Hospitalda müayinə və ilkin müalicə aldıqdan sonra həkimlərin təkidinə baxmayaraq, şəxsi heyətin yanına qayıdıb. Əsl fədakarlıq bu deyilmi?

Döyüşçülər dedilər ki, Seymur Həbibullahov yüksəklikdəki düşmən postunun üstünə Azərbaycan bayrağını şəxsən sancıb. Qoy düşmənlərimiz görsünlər ki, bu yerlərin əsl sahibi var və gec-tez üçrəngli bayrağımızı Xankəndidə ən uca binanın üstünə sancacağıq!

Azərbaycan oğulları son döyüşlərdə təsəvvürəgəlməz şücaətlərə imza atıblar. Zabit və əsgərlərimizin hər biri, sözün həqiqi mənasında, mətanət, dözümlülük, igidlik nümunələri göstəriblər. Heç kim silahdaşından geri qalmaq istəməyib. Əksinə, bir-birinə çiyindaş, dayaq olub. Belə bir qüvvənin qabağında düşmən duruş gətirə bilərdimi? Yox!

Azərbaycan Ordusu nəyə qadir olduğunu işğalçı Ermənistana göstərdi. Silahlı Qüvvələrimizin Cənubi Qafqazda ən güclü ordu hesab edildiyini ekspertlər dəfələrlə qeyd etmişlər. Bu döyüşlərdə düşmən bunun şahidi oldu.

Təəssüflər olsun ki, itkisiz keçinmək mümkün olmayıb. Mayor Elnur Əliyevin qəhrəmanlığı döyüşçü yoldaşlarının, ilk növbədə isə xilas etdiyi silahdaşlarının yadından heç vaxt silinməyəcək. Zabit Seymur Həbibullahovun sözlərinə görə, mayor E.Əliyev mərd, vətənsevər, ürəyiaçıq, qayğıkeş bir zabit olub, həmkarları arasında dərin hörmət qazanıbmış. Mənə elə gəlir ki, qəhrəmanlığı əslində belə zabitlər göstərə bilər.

Mayor Əliyev hərbi əməliyyat zamanı düşmənin atdığı əl qumbarasının üstünə atılaraq, həyatı bahasına əsgərlərini xilas etmişdi. Əsl qəhrəman kimi şəhid olmuş mayor Elnur Əliyev doğulduğu Füzuli torpağında böyük hörmətlə dəfn edilib.

Bu döyüşlərdə həlak olmuş zabit və əsgərlərimizin hər biri Azərbaycan üçün əvəzolunmaz itkidir. Onlar Vətən torpaqlarının azad edilməsi uğrunda canlarından keçdilər. Təsəllivericі məqam ondadır ki, şəhidlərimizin qanı yerdə qalmadı, düşmən qat-qat artıq itki verdi. Ən başlıcası isə torpaqlarımızın bir qismi düşməndən birdəfəlik təmizləndi.

Zabitlər maraqlı və təsirli bir epizod danışdılar. Ələ keçirilmiş düşmən postlarında ölmüş ermənilərdən birinin mobil telefonuna zəng gəlir. Zabitlərimizdən biri telefonu götürüb azərbaycanca cavab verir. Sən demə, İrəvandan zəng edən şəxs həmin ermənі zabitin anası imiş. Azərbaycanca bilən qadın vəziyyətin nə yerdə olduğunu anlayır.

- Niyə öldürdünüz oğlumu? - qadın soruşur.

- Sizin oğlunuzun Azərbaycan torpaqlarında nə işi var? - deyə zabit cavab verir.

Təbii ki, bir ana kimi erməni qadını başa düşmək çətin deyil. Ancaq o, oğlunun ölümü ilə bağlı sualı Vətənini işğalçılardan azad edən Azərbaycan zabitinə deyil, onu Azərbaycana göndərmiş öz ölkəsinin rəhbərlərinə ünvanlasaydı, daha doğru olardı. Cəbhədə baş verən bütün ölümlərin baiskarı məhz onlardır.

Qəflətən düşmən tərəfdən yenə nəsə atırlar. Dərhal zabitlərin amiranə səsi eşidilir. Hərbçilərimizin artıq yetərincə təcrübələri var və ərazidə qorunması mümkün olan yerlərdə gizlənirlər. Ancaq minaatan mərmisi uzaqlara düşür.

Son zamanlar təmas xəttində pilotsuz uçan aparatlardan istifadə edilməsi cəbhədə baş verən yeniliklərdəndir. Artıq döyüşçülərimiz onları səsindən tanıyır, maskalanma işləri aparırlar. Və beynəlxalq termin kimi dron adlandırılan həmin aparatlara qarşı necə mübarizə aparmağı da öyrəniblər. İndiyədək döyüşçülərimiz bu yerlərdə düşmənin bir neçə uçan pilotsuz aparatını məhv ediblər.

Döyüş növbəsindən gəlmiş qumbaraatan manqasının komandiri əsgər Fuad Vəliyev tuşlayıcı Allahverdi İsmayılovla səhər yeməyinə hazırlaşırdı. Onun da döyüşlər barədə təəssüratlarını öyrənmək qərarına gəldim.

Döyüşçü gülümsünür: "Vəziyyət əladır. Düşmənin payını vermişik. Heyətimiz düşmən mövqelərində iki atəş nöqtəsini susdurdu, onların bir UAZ markalı maşınını sıradan çıxardıq. Hamımız Xankəndiyə qədər bu əclafları qovmağa hazırıq. Təki komanda versinlər."

Ön xətdən çıxıb arxadakı ehtiyat bölmələrimizin yanına gəlirik. Bizimkilər münasib yerdə çadır quraraq yerləşmiş, döyüşə hazır vəziyyətdə, əmrə müntəzir dayanmışdılar.

Təcrübəli zabit Elşad Əbilov da şəxsi heyətlə birlikdə idi. Cəbhədəki uğurlarımız barədə son məlumatları şəxsi heyətə çatdırır, Azərbaycan dövlətinin, Ali Baş Komandan İlham Əliyevin baş verən hadisələrlə bağlı son çıxışında səsləndirdiyi fikirləri, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun qarşıya qoyduğu tapşırıqları zabit və əsgərlərə izah edirdi.

- Hərbçilərimiz bir nəfər kimi döyüşə can atırlar, - zabit Əbilov bildirir. - Əsgərlərimizin döyüş ruhu çox yüksəkdir. Ordumuzun cəbhədə ermənilərə ağır zərbələr endirməsi, uğurlar qazanması onları daha da həvəsləndirib. Amma biz hərbçiyik. Nə vaxt yuxarı komandanlıq tərəfindən əmr verilərsə, qarşıya qoyulan döyüş tapşırığını yerinə yetirməyə hazırıq.



Düşməni torpaqlarımızdan bu cəsur oğullar qovublar





**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**



*Cəbhədən reportaj*

# Düşmənə torpaqlarımızda yer yoxdur

***Aprelin əvvəlindən düşmən təmas xəttinə yaxın yaşayış məntəqələrimizi intensiv artilleriya atəşinə tuturdu. Bunun da nəticəsində mülki vətəndaşlar arasında həlak olan və yaralananlar vardır. Düşmənin təxribatlarına ordumuzun cəbhə xəttində yerləşən bölmələri tərəfindən layiqincə cavab verilir. Qarşı tərəfin atəş mövqelərini susdurmaq məqsədilə ordumuzun bölmələri uğurlu hərbi əməliyyat həyata keçirməyə məcbur oldular. Döyüş əməliyyatları zamanı ermənilərin işğalında olan Azərbaycan torpaqlarındakı bəzi əhəmiyyətli yüksəkliklər azad edilib. Şanlı Azərbaycan Ordusunun məğrur döyüşçüləri artıq həmin mövqelərdə qərar tutaraq istehkam qalaları ucaldırlar.***

Cəbhədə atəşkəs əldə olunmasından ötən 20 ildən çox müddətdə düşmən belə ağır zərbəyə məruz qalmamışdı. Artıq Azərbaycan əsgərinin nəyə qadir olduğunu bir daha gördü və qarşısında qüdrətli ordunun dayandığına əmin oldu. Ağır döyüşlərin getdiyi mövqelərdə qəhrəman döyüşçülərimizlə görüşmək üçün zabit Elşən Əliquliyevlə ön xəttə yola düşürük.

Düşmənlə təmas xəttinin lap yaxınlığında yerləşən Tərtər rayonunun Qapanlı kəndi sonuncu döyüşlərdə ən çox zərər çəkmiş yaşayış məntəqələrimizdən biridir. Ermənilərin artilleriya atəşi nəticəsində kəndə xeyli ziyan dəyib. Elektrik naqilləri və qaz xətləri sıradan çıxıb. Yaşayış evləri və şəxsi təsərrüfatların xeyli hissəsi dağılsa da, sakinlər evlərini tərk etməyiblər. Onlar dövlət qurumlarının köməyi ilə dəymiş zərəri aradan qaldırırdılar.

### Düşmən nəzarət altındadır

Budur, mətin döyüşçülərimizin müdafiə etdikləri dayaq məntəqəsindəyəm. Burada düşməndən qorunmaq üçün vacib mühəndis-istehkam işləri görülüb, kənd sakinlərinin əkin-biçin işləri ilə məşğul olması üçün torpaqdan böyük sipər yaradılıb. Bu kimi təhlükəsizlik tədbirlərinin görülməsinə baxmayaraq, kəndlərimizi ağır artilleriya silahlarından atəşə tutmaqda davam edirlər.



Bölmənin dayaq məntəqəsində baş leytenant Yasin Səfərov bizi qarşılayıb müdafiə mövqeyində son günlərdə baş verənlərlə bağlı bunları dedi:

- Hazırda mövqelərimiz düşməndən etibarlı qorunur. Gecə-gündüz fasiləsiz müşahidə aparırıq. Bir neçə gün bundan əvvəl burada düşmən atəşkəsi ciddi şəkildə pozmuşdu. Bu barədə komandanlığa məlumat verdik. Cavab atəşimizə baxmayaraq düşmən susmaq bilmirdi. Komandanlığın əmri ilə düşmənin mövqelərinə doğru irəlilədik. Mənfur erməniləri məhv edərək bir neçə postu ələ keçirdik. Bu döyüşlərdə bir əsgərimiz şəhid oldu, dörd döyüşçümüz isə yaralandı.

Daha sonra zabit deyir ki, yaralananlardan biri taqım komandiri olub. Leytenant Kamil Şəmiyev mina partlayışı zamanı qəlpə yaraları alsa da, ilk tibbi yardımdan sonra bölməyə qayıdaraq döyüşməkdə davam edib. Onu yenidən döyüşə qayıtmağa ruhlandıran Vətənə sıx bağlılığı və silahdaşlarına mehribanlığı olub.



Haqqında söhbət açılan hündürboy, sarışın hərbçi - vətənpərvər taqım komandiri ilə tanış oluram. Kamil söhbətimizdə dedi ki, hər an Ali Baş Komandanın əmri ilə mənfur ermənilərə qarşı döyüşməyə hazırdır. Komandirləri cəsur, vətənpərvər olan əsgərlərin də yüksək döyüş ruhuna şübhəm yoxdur. Axı əsgər komandirindən nümunə götürür, ondan təlim alır.

### “Əgər ölmək istəmirlərsə, torpaqlarımızdan rədd olub getsinlər”

Döyüşdə fərqlənən əsgərlərə gəlincə, zabit Yasin Səfərov dedi ki, hər bir əsgər döyüşdə özünü bacarıqlı, qorxmaz və əsl cəngavər kimi göstərdi.

Postdakı sonuncu döyüşdən üzüağ-alnıaçıq çıxan döyüşçülərdən bir neçəsi ilə görüşürəm. Kiçik çavuş Tural Aslanlı, sanitar-təlimatçı kiçik çavuş Şəmistan Aslanov, əsgərlərdən Şamxal Qarayev, Taleh Tağıyev, Kənan Məmmədov, Ceyhun Məmmədov, Məmməd Məmmədov və başqaları düşmənlə savaşda hünər və rəşadət göstəriblər.

Məhz onların şücaəti ilə bu yerlər mətinliklə qorunub. Bir neçə günlük döyüşlərdən üzüağ çıxan bu oğullar indi də müdafiə mövqeyində dayanıblar.

Mətin əsgərlərdən biri Ceyhun Məmmədov deyir ki, ermənilər torpaqlarımızda "köçəri quş" kimidilər. "Onların son günlər doğma torpaqlarımızdan necə köç etdiklərini öz gözlərimlə gördüm."

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Qarabağda öldürülən erməni əsgərlərinin analarına müraciətlə "əgər ölmək istəmirlərsə, torpaqlarımızdan rədd olub getsinlər" sözləri əsgərlərdə böyük ruh yüksəkliyinə səbəb olub.

### Müşahidə postunda söhbətlərim

Qarşıdakı müşahidə məntəqəsinə qalxırıq. Burada bizi əsgər Kamil Səlimov qarşılayır. Siyəzən rayonundan olan döyüşçü deyir ki, düşmən nə qədər güclü silahlansa da, biz onu məhv etməyə hazırıq.

Ön xətdə etibarlı və davamlı müşahidənin aparılması üçün yetərincə şərait yaradılıb. Üstübağlı atəş nöqtələrindən bir neçə istiqamətdə müşahidə aparmaq üçün mazğallar açılıb. Hər cür müşahidə cihazları ilə təchiz olunan döyüşçülərimiz düşmənin bütün hərəkətlərini diqqətlə nəzərdən keçirirlər. Əgər hər hansı bir təhlükə baş verərsə, tez müşahidəçi silahdaşlarına xəbər verir və bundan sonra onlar düşmən təhlükəsini aradan qaldırmaq üçün atəş sektorlarında öz yerlərini tuturlar.

Məğrur əsgərlərimizlə görüşdən son dərəcə xoş ovqatla ayrılıram, çünki bir vaxtlar mən özüm də burada həm əsgər, həm də zabit kimi xidmət etmişəm. İndi o vaxtdan neçə illər keçir. İnanıram ki, qarşıdakı torpaqlarımız da tezliklə işğaldan azad ediləcək və növbəti ezamiyyətlərimdə Azərbaycan əsgərinin rəşadətindən bəhs edən reportajları qələmə alacağam!

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# “Şəhidlər ölməz, Vətən bölünməz!”

Ordumuzun şəhid olan əsgəri, 1996-cı il təvəllüdlü Qasımov Teymur Mikayıl oğlu aprelin 5-də doğulduğu Göyçay rayonunda dəfn edilib. Şəhidin nəşi rayonun Çaxırlı kəndindəki məzarlıqda torpağa tapşırılıb.

Dəfn mərasimində "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarı səsləndirilib, şəhid əsgər yaylım atəşi altında son mənzilə yola salınıb.

Mərasimdə çıxış edənlər qüdrətli Azərbaycan Ordusunun düşmənə hər an tutarlı cavab verməyə hazır olduğunu, şəhidlərimizin qanının yerdə qalmayacağını, Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək onun əmrini gözlədiklərini bildiriblər.

Qeyd edək ki, şəhid Teymur Qasımov 2014-cü ilin oktyabrında Göyçay rayonundan hərbi xidmətə yola salınıb. O, cəbhənin Füzuli rayonu istiqamətində, Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində döyüş tapşırığını yerinə yetirən zaman düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub. Bir il 6 ay idi ki, hərbi xidmətdə olan Teymur Qasımov bu günlərdə Vətən qarşısında borcunu yerinə yetirib yaşadığı rayona qayıdacaqdı.

Şəhidin əmisi Məhəmməd Qasımov oğul itkisinin ağır olmasına baxmayaraq, ailə üzvlərinin Teymur Qasımovun şəhidliyindən qürur duyduğunu bildirib.



Çıxışlarda xaçmazlıların işğal altındakı torpaqlarımızı azad etmək üçün Ali Baş Komandanın əmrinə hər an hazır olduqları bildirilib.

Şəhidin cənazəsi kənd qəbiristanlığında torpağa tapşırılıb, məzarı üstünə əklil və tər qərənfillər qoyulub. Şəhidin tabutu üzərinə çəkilmiş üçrəngli Azərbaycan bayrağı ailəsinə təqdim edilib.

* * *

Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda qəhrəmancasına şəhid olan Azərbaycan Silahlı Qüvvələrinin zabiti, 1983-cü il təvəllüdlü Quliyev İnqilab Çingiz oğlu aprelin 5-də yaşadığı Gəncə şəhərində Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Dəfn mərasimində iştirak edən minlərlə gənc tərəfindən "Şəhidlər ölməz, Vətən bölünməz!", "Torpaq uğrunda ölən varsa, Vətəndir", "Hər birimiz Mübariz" şüarları səsləndirilib, şəhid əsgər yaylım atəşi altında son mənzilə yola salınıb.

Əslən Azərbaycanın Kəlbəcər rayonundan olan şəhid cəbhənin Tərtər rayonu istiqamətində, Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində gedən ağır döyüşlərdə xidməti tapşırığını yerinə yetirərkən qəhrəmancasına həlak olub.

Şəhidin atası Çingiz Quliyev övlad itkisinin ağır olmasına baxmayaraq, ailə üzvlərinin İnqilab Quliyevin şəhidliyindən qürur duyduğunu bildirib.

* * *

Qoşunların təmas xəttində düşmən təxribatlarının qarşısını alarkən şücaət göstərərək şəhid olan Şəki rayon sakini, 1992-ci il təvəllüdlü gizir Orxan Hümmətov aprelin 5-də doğulduğu Kiş kəndində torpağa tapşırılıb.

İzdihamlı mərasimdə Şəki şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov çıxış edərək, şəhidin ailə üzvlərinə və yaxınlarına rayon ictimaiyyəti adından dərin hüznlə başsağlığı verib, Vətən uğrunda şəhid olan qəhrəman övladlarımızın qanının yerdə qalmayacağını, intiqam gününün yaxınlaşdığını, düşməndən amansız qisas alınacağını, torpaqlarımızın işğaldan azad olunacağını bildirib.

Şəhid Orxan Hümmətov əsgərlərin yaylım atəşləri altında torpağa tapşırılıb. Mərasimə toplaşan şəkili gənclər, şəhidin dostları bir ağızdan "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarı səsləndirib, Kiş kəndinin igid oğlunun xatirəsinə ehtiramlarını bildiriblər.

Xatırladaq ki, 2011-ci ildə ordu sıralarına yola düşən Orxan Hümmətov 2012-ci ilin iyulunda hərbi xidmətini başa vurub. Həmin ilin dekabrında yenidən cəbhə bölgəsindəki hərbi hissələrdən birində gizir rütbəsi ilə xidmətə başlayıb. Düşmənin son təxribatları nəticəsində Tərtər rayonu ərazisində gedən döyüşlərdə qəhrəmancasına həlak olub.

* * *

Cəbhədə gedən döyüşlərdə həlak olan Silahlı Qüvvələrin zabiti, 1972-ci il təvəllüdlü Orucov Raquf İbrahim oğlu və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, 1989-cu il təvəllüdlü Məmmədov Murad Vaqif oğlu aprelin 5-də Sumqayıt şəhər Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Vida mərasimində şəhidin qardaşı Zabil Orucov Raqufun qəhrəmanlığından danışarkən deyib: "Raquf bu Vətən üçün doğuldu, bu Vətən üçün şəhid oldu. Allah bütün şəhidlərimizə rəhmət eləsin."

* * *

Aprelin 4-də Goranboy istiqamətində yüksəkliklər uğrunda gedən döyüşlərdə şəhid olmuş Naxçıvan Muxtar Respublikası Babək rayonu Cəhri kənd sakini, 40 yaşlı mayor Məmmədov Rasim Əbdül oğlunun cənazəsi doğulduğu kənddə dəfn edilib.

Şəhidlə vida mərasimində kənd sakinləri, hərbçilər və rayon İcra Hakimiyyətinin nümayəndələri, muxtar respublikanın müxtəlif rayonlarından və kəndlərindən də yüzlərlə insan iştirak edib.



Şəhidin ruhuna dualar oxunub.

Azərbaycanın Dövlət himni və yaylım atəşinin müşayiəti ilə şəhid mayor Rasim Məmmədov dəfn edilib.

Qeyd edək ki, şəhidimizin cənazəsi aprelin 4-də gecə Bakı şəhərindən Naxçıvan Beynəlxalq Hava Limanına gətirilib və burada qəhrəman mayorun nəşini yüzlərlə naxçıvanlı qarşılayıb.

* * *

Aprelin 4-də qoşunların təmas xəttində erməni birləşmələrinin hücumunun qarşısını alarkən şəhid olmuş Azərbaycan Ordusunun hərbi qulluqçusu, 21 yaşlı Əsgərov Nurlan Bayram oğlunun cənazəsi aprelin 5-də doğulduğu Masallı rayonunun Kalinovka kəndinə gətirilib.

Mərasimdə çıxış edənlər Vətən uğrunda canından keçən şəhidin qəhrəmanlığından, yurd sevgisindən danışıblar.

Qeyd olunub ki, Nurlan Əsgərov 2015-ci ilin iyul ayında həqiqi hərbi xidmətini başa vurduqdan sonra könüllü olaraq cəbhə bölgəsində Vətənə xidmətini davam etdirib. Düşmənlə ölüm-dirim mübarizəsində qəhrəmanlıqla həlak olub.

Şəhid əsgər yaylım atəşi altında kənd qəbiristanlığında torpağa tapşırılıb.

Azərbaycanın üçrəngli bayrağı şəhidin atasına təqdim edilib.

* * *

Aprelin 5-də Zərdabda daha bir şəhidimiz torpağa tapşırılıb. 2012-ci ildə Naxçıvanda əsgəri xidmət keçən, xidmətini başa vurduqdan sonra könüllü olaraq müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, Zərdab rayonunun Böyük Dəkkə kənd sakini, 1994-cü il təvəllüdlü gizir Abdullayev Nurlan Rasim oğlu ötən gün Tərtər bölgəsində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Böyük Dəkkə kəndində torpağa tapşırılan şəhidin dəfn mərasimi izdihamlı keçib. Dəfn mərasimində Zərdab rayon İcra Hakimiyyətinin başçısı Lütvəli Babayev, kənd ağsaqqalı Rəhim Rəhimov, şəhidin əmisi Lələş Abdullayev, rayon ağsaqqallar şurasının sədri Mirağa Bağırov çıxış edərək şəhidin ailəsinə başsağlığı verib, torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə həlak olan Nurlanın xatirəsinin qəlblərdə əbədi yaşayacağını vurğulayıblar.

Mərasimdə şəhidin xatirəsinə yaylım atəşi açılıb.



* * *

Erməni silahlı qüvvələrinin təxribatları nəticəsində cəbhə bölgəsində gedən döyüşlərdə şəhid olan Azərbaycan Ordusunun 27 yaşlı hərbi qulluqçusu Qayıbov Elvin Sədrəddin oğlu doğulub boya-başa çatdığı Xaçmaz rayonunda torpağa tapşırılıb.

Əbilyatağı kənd qəbiristanlığında dəfn edilən E.Qayıbov Füzuli ətrafında gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Mərasimə qatılanlar Elvin Qayıbovun şücaətindən söz açıb, vətənpərvər övlad olmasından, doğma Vətəni Azərbaycana sevgisindən danışıblar.

Şəhidin atası Sədrəddin Qayıbov torpaqlarımızın azadlığı uğrunda canından keçən oğlu ilə fəxr etdiyini deyib, şəhid olmuş övladının qisasının döyüş yoldaşları tərəfindən artıqlaması ilə alınacağına əminliyini ifadə edib.

* * *

Cəbhədə erməni silahlı qüvvələrinin təxribatının qarşısını alarkən qəhrəmancasına həlak olan ordumuzun 19 yaşlı döyüşçüsü Qasımov Nurlan Cəmil oğlunun üçrəngli bayrağa bürünmüş nəşi doğulduğu Şəmkir rayonunun Tatarlı kəndində torpağa tapşırılıb.

Mərasimdə çıxış edənlər mərhumun ailə üzvləri və yaxınlarına dərin hüznlə başsağlığı verib, şəhidin keçdiyi döyüş yolundan danışıblar. Bildirilib ki, qüdrətli Azərbaycan Ordusu düşmənə hər an tutarlı cavab verməyə hazırdır. Vətən yolunda canından keçən qəhrəman Azərbaycan oğullarının xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.

Şəhid əsgər yaylım atəşi altında kənd qəbiristanlığında dəfn edilib. Tabut üzərindəki üçrəngli Azərbaycan bayrağı şəhidin atası Cəmil Qasımova təqdim olunub.

(ardı 7-ci səhifədə)

# "Şəhidlər ölməz, Vətən bölünməz!"

(əvvəli 6-cı səhifədə)

Cəbhə xəttinin Tərtər istiqamətində erməni hərbi birləşmələrinin təxribatının qarşısını alarkən ordumuzun qəhrəmancasına həlak olan zabiti baş leytenant Rəşid Mehdiyevin cənazəsi doğulduğu Salyan rayonunun Xalac kəndinə gətirilib. Şəhid zabit kənd qəbiristanlığında torpağa tapşırılıb.

İzdihamlı vida mərasimində çıxış edənlər şəhidliyin ən uca zirvə olduğunu, şəhidlərin əziz xatirəsinin hər zaman qəlbimizdə yaşayacağını bildiriblər.

Mərasimdə Rəşidin xatirəsinə yaylım atəşi açılıb.

Sonra şəhidlərimizin ruhuna dualar oxunub.

Baş leytenantın tabutu üzərindəki üçrəngli Dövlət bayrağı isə əbədi xatirə kimi saxlanılması üçün şəhidin atasına təqdim edilib.

* * *

Cəbhənin Füzuli rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olan ordumuzun baş leytenantı Həsənov Ziya Niyazi oğlu böyüyüb boya-başa çatdığı Bərdə şəhərində torpağa tapşırılıb.





Mərasimdə çıxış edən Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik Abdulla Qurbani və Bərdə rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev şəhidin ailəsinə dərin hüznlə başsağlığı verib, Azərbaycan Ordusunun son günlər cəbhədə qazandığı uğurlardan bəhs ediblər. Bildirilib ki, torpaqlarımızın müdafiəsi uğrunda şəhid olmuş bütün əsgərlərimizin qisası qüdrətli ordumuz tərəfindən düşməndən alınır.

Mərasimdə müharibə veteranı Gəray Əsədov, şəhidin müəllimi Tofiqə Məmmədova, atası Niyazi Həsənov çıxış edərək, bütün şəhidlərə Allahdan rəhmət diləyib, onların əziz xatirəsinin daim qəlblərdə yaşayacağını bildiriblər.

Minlərlə insanın müşayiəti ilə şəhidin cənazəsi Bərdə Şəhidlər qəbiristanlığında əsgəri ənənələrə uyğun yaylım atəşi altında torpağa tapşırılıb, məzarı üstünə əklil və tər qərənfillər qoyulub. Şəhidin tabutu üzərinə çəkilmiş üçrəngli Azərbaycan bayrağı ailəsinə təqdim edilib.

* * *

Ordumuzun şəhid olan zabiti, 1992-ci il təvəllüdlü Şirinov Sahil Həsrət oğlu aprelin 6-da doğulduğu Qəbələ rayonunda dəfn edilib.

Şəhid Sahil Şirinovun nəşi Qəbələ rayonunun Bum qəsəbəsindəki məzarlıqda torpağa tapşırılıb, ruhuna dualar oxunub.

Mərasimdə çıxış edənlər qüdrətli Azərbaycan Ordusunun düşmənə hər an tutarlı cavab verməyə hazır olduğunu, şəhidlərimizin qanının yerdə qalmayacağını, Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək onun əmrini gözlədiklərini bildiriblər.

Dəfn mərasimində "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarı səsləndirilib, şəhid əsgər yaylım atəşi altında son mənzilə yola salınıb. Şəhidin tabutuna bükülmüş Azərbaycanın üçrəngli bayrağı atasına təqdim edilib.

Qeyd edək ki, şəhid leytenant Sahil Şirinov cəbhənin Tərtər rayonu istiqamətində Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində döyüş tapşırığını yerinə yetirən zaman düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub. Evlənməyə hazırlaşan Sahil Şirinovun nişan mərasimi olmuşdu və o, toyuna hazırlaşırdı.

Mərasimdə Zaman Şirinov şəhid qardaşı Sahil ilə fəxr etdiyini bildirib. O, Vətən uğrunda canlarından keçən bütün şəhidlərimizə Allahdan rəhmət diləyib.

* * *

Düşmənlə təmas xəttində gedən döyüşlərdə şəhid olan zabitimiz Yusifov Vüqar Nurəddin oğlu Şəmkirdə, doğulub boya-başa çatdığı Şiştəpə kəndində torpağa tapşırılıb. Üç uşaq atası olan Vüqar Yusifov Goranboyun Tapqaraqoyunlu kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına həlak olub.

Mərasimdə çıxış edənlər zabitin keçdiyi şərəfli ömür yolundan, Vətənə bağlılığından söz açıblar. Böyük izdiham yaşanan mərasimdə Vüqar Yusifovun əsl vətənpərvər, qorxmaz, cəsur və yüksək intizamlı bir zabit kimi daim yaddaşlarda yaşayacağı vurğulanıb.

Şəhidin nəşi "Vətən sağ olsun!", "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarları ilə son mənzilə yola salınıb. Üçrəngli Azərbaycan bayrağı şəhidin atası Nurəddin Yusifova təqdim olunub. Daha sonra Dövlət himnimizin sədaları altında yaylım atəşi açılıb və şəhid zabitimiz torpağa tapşırılıb.

* * *

Qoşunların təmas xəttində erməni təxribatının qarşısını alarkən şəhid olmuş Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Əsgərov Təbriz Hamlet oğlu Şəmkir rayonunun Morul kəndində dəfn edilib.

Dəfn mərasimində Şəmkir rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov şəhid əsgərin ailəsinə başsağlığı verib, Azərbaycan Ordusunun düşmənə endirdiyi sarsıdıcı zərbədən söz açıb. Müdafiə Nazirliyinin idarə rəisi general-mayor Rasim Əliyev, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəis müavini general-mayor Novruzəli Orucov, Milli Məclisin deputatları Sona Əliyeva və Sahibə Qafarova çıxışlarında ərazi bütövlüyü uğrunda qəhrəmanlıqla döyüşən Azərbaycan əsgərinin şücaətini yüksək qiymətləndiriblər.

Şəhidin atası Hamlet Əsgərov övladının Vətən uğrunda şəhid olmasından qürur duyduğunu dilə gətirib. Yaxınları Təbrizi vətənsevər, mərd, cəsur bir gənc kimi tanıdıqlarını bildiriblər.

Çıxış edən hərbçilər də şəhidlik zirvəsinə ucalan əsgərin döyüş tapşırıqlarını layiqincə yerinə yetirdiyini diqqətə çatdırıblar.

Şəhid əsgər yaylım atəşi altında Şəmkir şəhərindəki qəbiristanlıqda dəfn edilib. Tabut üzərindəki üçrəngli Azərbaycan bayrağı şəhidin atasına təqdim edilib.

* * *

Aprelin 4-də cəbhə bölgəsində baş vermiş döyüşlərdə Azərbaycan Ordusunun şəhid olmuş əsgəri, 19 yaşlı İslamov Əlizaman Fərrux oğlu Lənkəran rayonunun Cil kənd qəbiristanlığında dəfn olunub.

Dəfn mərasimində Lənkəran şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov və ictimaiyyətin nümayəndələri, kənd sakinləri iştirak ediblər.



Şəhid Əlizaman İslamov yaylım atəşi altında torpağa tapşırılıb. Onun büküldüyü üçrəngli Azərbaycan bayrağı dayısına təqdim edilib.

* * *

Cəbhənin Tərtər istiqamətində erməni hərbi birləşmələrinin təxribatının qarşısını alarkən şəhid olan "N" hərbi hissəsinin əsgəri, 1993-cü il təvəllüdlü Bayramov Şülan Bayram oğlu doğulduğu Sumqayıt şəhərində aprelin 7-də son mənzilə yola salınıb.

Sumqayıt sakinləri qəhrəman oğulu böyük qürur və iftixar hissi ilə dəfn etmək üçün küçələrə axışıblar. Gənclər şəhidlərimizin intiqamını almağa, ön cəbhəyə gedib doğma torpaqlarımızı azad edənədək vuruşmağa hazır olduqlarını bildiriblər.

Şəhidin evindən Sumqayıtdakı Şəhidlər xiyabanınadək "Şəhidlər ölməz, Vətən bölünməz!", "Yaşasın Qarabağ, yaşasın Azərbaycan!", "Qarabağ bizimdir, bizim olacaq" kimi şüarlar səsləndirilib.

Dəfn mərasimində çıxış edənlər Silahlı Qüvvələrimizin şəhid olan hərbi qulluqçularına Allahdan rəhmət diləyib, cəbhəboyu mövqelərimizin və yaşayış məntəqələrinin atəşə tutulmasından, düşmənə verilən layiqli cavabdan bəhs ediblər.

Şəhidin atası Bayram Bayramov övladının Vətən uğrunda şəhid olmasından qürur duyduğunu deyib. Qardaşı, hazırda əsgər olan Turan Bayramov və yaxınları Şülanı vətənsevər, mərd, cəsur bir gənc kimi tanıdıqlarını bildirib, xatirələrini paylaşıblar.

Şəhidin cənazəsi minlərlə sumqayıtlının, vətənpərvər gənclərin izdihamlı müşayiəti ilə Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb, məzarı üstünə əklil və tər qərənfillər qoyulub. Şəhid əsgər yaylım atəşi altında dəfn edilib. Tabut üzərindəki üçrəngli Azərbaycan bayrağı şəhidin atasına təqdim edilib.

**PS.** *Qeyd edək ki, bütün şəhidlərimizin dəfn mərasimləri izdihamlı keçirilib. Bu tədbirlərdə şəhər və rayon icra hakimiyyətlərinin, Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon idarələrinin nümayəndələri, şəhidlərin döyüşçü yoldaşları, müharibə veteranları və sadə insanlar iştirak ediblər.*

**"Azərbaycan Ordusu"**

# Əlahiddə Ümumqoşun Ordu istənilən hərbi əməliyyatı yerinə yetirməyə hazırdır

## Düşmənlə sərhəddə mövqe tutan əsgərlərimiz yüksək əhval-ruhiyyədədirlər



*Son günlər Azərbaycan Silahlı Qüvvələrinin işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi istiqamətində həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar cəmiyyətimizdə böyük ruh yüksəkliyi yaradıb. Erməni ordusunun atəşkəsi müntəzəm pozmasına və dinc əhalini hədəfə almasına cavab olaraq həyata keçirilən hərbi əməliyyatlar bir daha Azərbaycan Ordusunun gücünü bütün dünyaya nümayiş etdirdi.*

Ötən günlərdə cəbhədə qanlı döyüşlərin getdiyi bir vaxtda Ermənistanla 246 kilometr sərhədi olan blokada vəziyyətindəki Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyi məsələsi bir daha aktuallaşdı. Belə bir vəziyyətdə düşmənə xəbərdarlığımız isə Azərbaycan Silahlı Qüvvələrinin ən böyük hərbi kontingentinin - Əlahiddə Ümumqoşun Ordunun muxtar respublikada yerləşməsidir. Qədim diyarımıza ehtimal olunacaq istənilən hücumu ən müasir döyüş silahları ilə dəf etmək gücünə malik Əlahiddə Ümumqoşun Ordu çoxminli şəxsi heyəti ilə düşməni nəinki yerindəcə məhv etmək qabiliyyətinə malikdir, hətta əkshücuma keçərək onların bütün strateji məntəqələrini darmadağın etmək iqtidarındadır. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev Naxçıvan Muxtar Respublikasının müdafiə potensialının yüksək səviyyədə olduğunu bildirərək deyib: "Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır".

Bu günlərdə Əlahiddə Ümumqoşun Ordunun ən strateji nöqtələrindən biri olan Sədərək rayonu ərazisindəki döyüş postlarında müşahidə apardığımız zaman bir daha ordumuzun müdafiə potensialının, döyüş hazırlığının ən yüksək səviyyədə olduğuna əmin olduq. Ötən əsrin 90-cı illərində Naxçıvanın müdafiəsində öz sözünü demiş bu strateji məntəqə bu gün də igid, qəhrəman əsgərlərimiz tərəfindən göz bəbəyi kimi qorunur. Burada xidmətin günün tələbləri səviyyəsində təşkili üçün hər cür şərait yaradılıb, maddi-texniki baza tələb olunan səviyyədə möhkəmləndirilib. Həyata keçirilən kompleks tədbirlər hərbçilərin döyüş qabiliyyətinin və mənəvi-psixoloji səviyyəsinin yüksəlməsinə səbəb olub.

Ön xəttə qalxarkən heyrətlənməmək olmur. Burada əlaqə yoluna daşlardan pilləkənlər



inşa edilib, hərbi hissənin istehkamçıları sədd və səngərlərimizi daşla, betonla hörərək bərkidiblər. Daha nə yağış, nə də qar torpağı aşındıra bilər.

Sərhəd boyu sakitlikdir. Ölkənin digər təmas xətlərindən fərqli olaraq, bu mövqelərimizdə atəşkəsin pozulması hallarına rast gəlinməyib. Ancaq yenə də burada gördüklərim əsl cəbhə həyatını xatırladır: bütün çətinlikləri, mövcud intizamı, özünəməxsus şəraiti, eyni zamanda dözümlü, mətin döyüşçüləri ilə insanda dolğun təəssürat yaradır. Baxışlarında qığılcım parlayan oğullarla torpaqlarımızı nəinki müdafiə etmək olar, hətta lazım gələrsə, çox-çox irəliyə də getmək mümkündür. Səngərdə görüşüb söhbət etdiyimiz əsgərlər də Ali Baş Komandanın hücum əmrini həmişə gözlədiklərini qeyd etdilər.

Burada bizi baş leytenant Seymur Manzanov qarşıladı. Əyinlərindəki zirehli gödəkçə, başlarında dəbilqə, yaraqlı-yasaqlı bir neçə əsgər də sırada dayanmışdı. Məlum oldu ki, onlar postlardakı silahdaşlarını dəyişməyə getməlidirlər.

"Son günlərdə qüdrətli ordumuzun işğal altındakı ərazilərdə uğurlu hərbi əməliyyatlar aparması şəxsi heyətimizdə yüksək döyüş əhval-ruhiyyəsi yaradıb", - deyən baş leytenant Seymur Manzanov bizimlə söhbətində onu da qeyd etdi ki, Azərbaycanın alınmaz qalası adlandırılan Sədərəkdə bu gün tam sakitlikdir: "Biz bilirik ki, ermənilər strateji əhəmiyyətə malik olan Sədərəyi həmişə hədəf seçə bilərlər. Çünki xain düşmən tez-tez təxribatlara əl ata bilər. Ona görə də biz həmişə döyüş növbəsində ayıq-sayıq dayanır, qarşı tərəfi daim nəzarətdə saxlayır, bütün vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışırıq. Yüksək döyüş hazırlığına malik əsgərlərimiz, silah-sursatımız kifayət qədərdir. İstənilən anda düşmənin təxribatlarına ən layiqli şəkildə cavab verməyə hazırıq."

Seymur Manzanov onu da dedi ki, burada ölkəmizin müxtəlif bölgələrindən hərbi xidmətə çağırılanlar var. "Onlar dostlaşıb-qardaşlaşıb, biri-birinə arxa-dayaq olublar."

Əsgər Elnur Qasımovla söhbətimiz zamanı o, komandirinin dediklərini təsdiqləyir: "Biz - hərbi xidmətdə olan əsgərlər anlayırıq ki, gücümüz birliyimizdədir. Ona görə də çiyin-çiyinə verib hərbi xidmətimizi uğurla aparırıq. Döyüş növbəsində ayıq-sayıq dayanırıq. Əhval-ruhiyyəmiz çox yüksəkdir. Çünki son günlər ordumuz böyük uğurlara imza atıb. Mən Ağdam rayonunun Quzanlı qəsəbəsindənəm. Ordumuzun cəbhənin müxtəlif istiqamətlərində böyük üstünlüyə nail olması məni və əsgər yoldaşlarımı hədsiz sevindirir. Arzulayırıq ki, Ali Baş Komandanımız əmr versin, biz, Sədərəkdə xidmət edən əsgərlər muxtar respublikanın işğal altında olan Kərki kəndini xilas edək və düşmənə sarsıdıcı zərbələr endirək."

Əsgər Rasim Əhədov isə Bakı şəhərindəndir. Nizam-intizamı, məsuliyyəti ilə seçilən Rasim deyir ki, hərbi xidmətə gələndən sonra silahla rəftar və döyüş qaydalarını tam öyrənib. Bir müddətdən sonra isə komandirləri döyüş növbəsi aparmağa icazə veriblər: "Sözün açığı, döyüş növbəsində olmaq həmişə mənə böyük qürur bəxş edir. Çünki mən Vətənimin keşiyində dayanıram. Azərbaycanın hər bir bölgəsi mənim üçün əzizdir. Mən fəxr edirəm ki, bu gün ulu öndərimiz Heydər Əliyevin doğulub boya-başa çatdığı qədim Naxçıvan diyarının keşiyində dayanmışam."



Naxçıvan şəhərindən olan əsgər Bəhlul Mirzəyev isə deyir: "Əsgər yoldaşım kimi mən də Vətənə xidmət etdiyim üçün qürur hissi keçirirəm. Düşmən bizim məğrur duruşumuzu görür və Vətənin keşiyində necə ləyaqətlə dayandığımızı hər addımda hiss edir. Daha doğrusu, biz ayıq-sayıqlığımızla bunu onlara hiss etdiririk. Düşmənə, necə deyərlər, göz açmağa imkan vermirik. Ordumuzun qazandığı son uğurlar bizi daha da ruhlandırır. Düşmənin istənilən təxribatının qarşısını almağa tam hazırıq."

Muxtar respublikanın Ordubad rayonundan olan əsgər Nicat Təvəkkülzadə deyir ki, bu yerlər artıq 26 ildir döyüş bölgəsi adlandırılır. Vaxtilə burada qanlı döyüşlər gedib, tez-tez atışma olub. Bu gün isə ermənilər buna cəsarət edə bilmirlər. Çünki onlar hər dəfə layiqli cavablarını alırlar və susmaqdan başqa çarələri qalmır. "Düşmənə başını qaldırmağa imkan vermirik. Bu gün ermənilər qorxu içərisindədir. Çünki onlar bizim gücümüzə artıq bələddirlər", - deyə Nicat vurğulayır.

Kiçik çavuş Məmmədbağır Əliyev isə muxtar respublikanın Kəngərli rayonundandır. O da mehriban kollektivdə qaynayıb-qarışıb, manqa komandiri kimi mahir döyüşçüyə çevrilib. Əsgər deyir: "Mən minaatan batareyasında xidmət edirəm. Biz istənilən vaxt düşmən hədəflərini məhv edə bilərik. Keçdiyimiz hərbi təlimlərdə döyüşün bütün sirlərinə yiyələnmişik. Bununla bərabər, biz burada valideynlərimizin, eyni zamanda Vətənimizin dəyərini daha yaxşı anlayırıq. Məsuliyyətin nə olduğunu bilirik. Bilirik ki, əgər biz döyüş növbəsində ayıq-sayıq dayanmasaq, düşmən müxtəlif təxribatlar törədə bilər. Ona görə də Vətənimizin keşiyində mətanətlə dayanmışıq və düşmənə heç vaxt imkan verməərik ki, hər hansı təxribat törətsin."

Sumqayıt şəhərindən hərbi xidmətə gələn əsgər Aydın Nəcəfov də söhbətimizə qoşulur: "Əslən Qərbi Azərbaycanın Sisian rayonunun Şəki kəndindənəm. Hər dəfə döyüş növbəsində dayananda həsrətlə Vətən torpaqlarına baxıram. Bu qədim diyarın ərazisi əvvəllər daha böyük olub. Hətta vaxtilə Qarakilsə adlanan Sisian rayonunu da əhatə edib. Əminəm ki, nə vaxtsa biz ata-baba yurdumuza qayıdacağıq. Bizi o torpaqlardan qovan düşmənimizə qarşı nifrət bəsləyirəm. İstənilən döyüş tapşırığını yerinə yetirməyə tam hazıram. Yetər ki, Ali Baş Komandan əmr versin."

İgid əsgərlərimiz onu da vurğuladılar ki, Ali Baş Komandanı İlham Əliyev olan ordumuz heç vaxt yenilməyəcək. Bəli, bu əsgərlər öz Vətənlərində - Azərbaycan torpağında xidmət edirlər. Bizim heç bir ölkənin torpağında gözümüz yoxdur.

Son dövrlər Azərbaycan Silahlı Qüvvələri və onun tərkib hissəsi olan Əlahiddə Ümumqoşun Ordu hərbi təlimlərdə öz gücünü, qüdrətini dünyaya nümayiş etdirdi. Muxtar respublikanın ön xəttindəki bölmələrin birində gördüklərimiz bir daha bu qənaətimizi gücləndirdi.

**Rauf ƏLİYEV,**
**AZƏRTAC-ın Naxçıvan Muxtar Respublikasındakı bürosunun rəhbəri**

Cəbhədən reportaj

# Qələbəyə inam bizi Qarabağa qovuşduracaq

*Aprelin 2-də gecə saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri işğal olunmuş torpaqlarımızdan ordumuzun cəbhəboyu mövqelərini və yaxın yaşayış məntəqələrini, dinc əhalini iriçaplı pulemyotlardan, artilleriya silahlarından atəşə tutdu, növbəti dəfə təxribatlara əl atdılar. Lakin düşmən Azərbaycan Ordusunun qarşısında tab gətirə bilmədi. Vətənpərvər, qəhrəman hərbçilərimiz onların layiqli cavabını verdilər. Çoxsaylı itkilərə məruz qalan ermənilər geri çəkilməyə məcbur oldular. Bir sıra yaşayış məntəqəsinin, strateji yüksəkliklərin azad olunması Azərbaycan Ordusunun torpaqlarımızı azad etməyə qadir olduğunu bir daha sübut etdi. 22 ildən sonra ordumuzun bu qələbəsi xalqımızın böyük ruh yüksəkliyinə və sevincinə səbəb oldu. Cəbhədən gələn ilk qələbə xəbərləri jurnalist həmkarlarımla birlikdə məni də çox sevindirdi. Yaralılarımızın təxliyyəsinin təşkilində mülki və hərbi həkim kontingenti təcili səfərbər edildi. Düşmənlə təmas xəttində peşə fəaliyyətimizi həyata keçirmək üçün ön xəttə ezam olunuruq.*



Ezamiyyətin ilk günü düşmənlə mübarizədə rəşadət göstərmiş əsgər və zabitlərimizin müalicə aldığı hərbi tibb ocağına yola düşürük. Qarabağ müharibəsinin ağır sınaqlarından çıxmış hospitalın tibb heyəti bu dəfə də müqəddəs peşə borcunu şərəflə yerinə yetirir.

Ordumuzun zabiti Xəqani Cəfərov aprelin 4-də Ağdam istiqamətində gedən döyüşlərdə yaralanıb. Sağlamlıq durumu ilə maraqlanarkən zabitimiz tezliklə sağalıb torpaqlarımızın azadlığı uğrunda xidmətini davam etdirəcəyini bildirdi. Təcrübəli həkim, tibb xidməti mayoru Telman Rzayev bizimlə söhbətində gecə-gündüz yaralılara yardım göstərilməsini, bu işin yüksək səviyyədə təmin edildiyini vurğuladı: "Hər bir döyüşçümüzün sağlamlığını qorumaq üçün əlimizdən gələni edirik."

Gizir Kəyan Məmmədov, baş çavuş Ceyhunə Abbasova, kiçik çavuş Pərvanə Həsənova, mülki tibb bacısı Nüşabə Səlimovanın söhbətlərinə görə, yaralı döyüşçülərimizdə olan ruh yüksəkliyi onlara qürurverici hisslər yaşadıb. "İnşallah, onlar tezliklə ayağa qalxıb düşməni torpaqlarımızdan qovacaqlar. Ordumuzun əsgər və zabitlərinin qəhrəmanlığına bütün xalqımız güvənir," - dedilər.

Yaralı zabitimizi ziyarət etdikdən sonra döyüşə hər an hazır olan Vətənimizin fədakar oğulları ilə görüşmək üçün tabora yollanırıq.

Düşmənə hər an zərbə endirməyə hazır olduqlarını bildirən zabit Elvin Qasımovu 2014-cü ilin avqust hadisələrindən tanıyıram. O zaman Elvin bölüyü ilə birlikdə erməni kəşfiyyat-diversiya qrupunun ərazilərimizə basqınının qarşısını mərdliklə almış, düşmənin yalvarışlarına baxmayaraq döyüş tapşırığını sona kimi yerinə yetirmişdi. Qarşımızda yenə də zirehli geyimi və tabeliyindəki döyüşçüləri ilə birlikdə torpaqlarımızın azadlığı naminə hücum əmrini gözləyən, ölümün gözünə dik baxan vətənpərvər zabitimiz E.Qasımov dayanıb. "Biz haqq uğrunda döyüşürük, başqa ölkənin ərazisini işğal etməmişik ki", - deyən zabit bildirir ki, aprelin 2-nə keçən gecə cəbhə xəttində baş verən qanlı döyüşlərə səbəb yenə də ermənilərin təxribatları oldu. "Rəşadətli ordumuz onlara yenə də layiqli cavab verdi. Erməni hərbçiləri böyük itki verərək çıxış yolunu qaçıb canlarını qurtarmaqda gördülər. Ərazi bütövlüyümüz uğrunda döyüşlərə atılmağa hazır olan əsgərlərimizin sinələrində gəzdirdikləri kiçik üçrəngli bayrağımızı azad olunacaq torpaqlarımıza sancmaq üçün Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müharibə əmrinə hər an hazırıq", - deyə zabit vurğuladı.

Söhbətimi əsgərlərlə davam etdirməyə çalışsam da, təəssüf ki, alınmır. Çünki azğınlaşmış ermənilər qüvvələrimizin yerləşdiyi ərazini həmin vaxt artilleriya atəşinə tuturdu. Amma öyrənirəm ki, əsgərlərimiz ordumuzun uğurlarından fərəhlənərək daha da irəli getməyə hazırlaşırlar.

Gənc döyüşçülərimizlə ayaqüstü söhbətləşməyə imkan tapıram. Əsgər Elvin Muxtarov əslən Zəngilan rayonundandır. Ata-baba yurduna ayaq basacağı günün ömrünə yazılacaq tarixi an olacağını deyən əsgər bildirir ki, canımızdan, qanımızdan keçsək də, tarixi torpaqlarımızı düşməndən geri almalıyıq. Yoxsa, şəhid olan əsgər yoldaşlarımızın ruhu bizi bağışlamaz.

Əsgər Elmar Bayramlı da döyüşçü yoldaşı ilə həmfikir olduğunu söyləyir.

- Düşmən işğalında olan Vətən torpağının hər qarışı uğrunda mübarizəmizi davam etdirməyə hazırıq. Şəhid silahdaşlarımızın qanını yerdə qoymayacağıq.

Əsgər Ramal Babayev isə Cəlilabad rayonundan hərbi xidmətə gəlib. Dediyinə görə, ön xətdə xidmət aparmağı komandirlərindən özü israrla xahiş edib. Əsgərlərdən Mirmehdi Ağayev, Sərxan Sadıqov, Pərviz Qurbanov, Röyal Əhədzadə, Kamil və Amil Abbasovlar da öz arzularını bölüşürlər, Vətənin hər qarışı uğrunda döyüşə böyük ruh yüksəkliyi ilə hazırlaşdıqlarını bildirirlər.



Döyüşçülərlə söhbətimi yekunlaşdırıb təmas xəttinə yaxın məsafələrdə yaşayan kənd sakinləri ilə də görüşmək, onların cəbhə həyatı ilə bağlı qayğılarını, təəssüratlarını dinləmək istəyirəm. Onlar bildirirlər ki, çətin şəraitdə güllə altında yaşamalarına baxmayaraq, evəşiklərini qoyub getmək fikrində deyillər. Son günlər düşmənə qan udduran qüdrətli ordumuza güvəndiklərini və döyüş başlayarsa, hərbçilərimizə hər vasitə ilə dəstək olacaqlarını bildirirlər.

Qarabağ müharibəsi veteranları Azər Şirinov, Lənkəran Mehdiyev, Şəmil Vəliyev, Abdin Qasımov, Qabil Bəylərov və Cahid Əliyev Ali Baş Komandan tərəfindən səfərbərlik əmri verilərsə, döyüşlərə qatılacaqlarını söyləyirlər. Çünki onlar Qarabağ müharibəsində - Azərbaycanımızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə yetərli təcrübə qazanıblar.

Şübhə yoxdur ki, ordumuzun və xalqımızın qələbəyə köklənən ruhu bizi Şuşamıza, Xankəndimizə... qovuşduracaq.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

## "Azərbaycana məxsus silah-sursatla dolu avtomaşının Ermənistan tərəfindən ələ keçirilməsi xəbəri yalandır"

*Ötən gecə Ermənistan Müdafiə Nazirliyi Azərbaycan Silahlı Qüvvələrinə məxsus, silah-sursat yüklənmiş avtomaşının ələ keçirilməsi barədə məlumat yayıb.*

AZƏRTAC-ın sorğusuna cavab olaraq, Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı bildirib ki, Ermənistan tərəfinin yaydığı bu məlumat növbəti dezinformasiyadır. "Heç bir hərbi təhlükə mənbəyi olmayan, qeyri-döyüş nəqliyyat vasitəsinə qarşı xüsusi təyinatlıların cəlb olunması ilə əməliyyatın təşkil edilərək keçirilməsi yalnız Ermənistan Müdafiə Nazirliyinin ağlına gələ bilərdi. Hətta Ermənistanın hərbi nazirliyi bu barədə bütün dünyaya car çəkməkdən utanmayaraq, bununla "fəxr edir". Hərkəsə məlumdur ki, bu tip nəqliyyat vasitəsi heç bir döyüş və müdafiə vasitəsilə təmin olunmadığından hərbi təhlükə mənbəyi ola bilməz", - deyə V.Dərgahlı vurğulayıb.

Döyüş meydanında məğlubiyyətə uğrayan Ermənistanın hərbi rəhbərliyinin müxtəlif əfsanələr və gülüş doğuracaq hadisələr uyduraraq əhalisini sakitləşdirməklə rahatlıq tapmağa çalışdığını diqqətə çatdıran nazirliyin mətbuat xidmətinin rəisi qeyd edib: "Sirr deyil ki, həqiqətən, hərbi əməliyyatların gedişi zamanı hər iki tərəfdən müxtəlif növ texnikalar vurulub və ya sıradan çıxarılıb. Ehtimal etmək olar ki, fəal döyüş toqquşmaları sona çatdıqdan sonra Ermənistan Müdafiə Nazirliyi öz aktivinə daha bir "xəyali qələbəni" əlavə etmək qərarına gəlib.

Diqqət çəkən daha bir məqam ondan ibarətdir ki, Azərbaycan ərazisində xüsusi əməliyyatın keçirilməsi barədə Ermənistan Müdafiə Nazirliyi tərəfindən bu tip bəyanatın yayılması onların məsuliyyətsizliyinin, əldə olunan razılaşmalara saymazyana münasibətin bariz nümunəsidir və atəşkəs rejimini Ermənistan tərəfinin pozmasının sübutudur".

## Müdafiə Nazirliyi Xankəndi üzərində Azərbaycana məxsus PUA-nın vurulması məsələsinə münasibət bildirib

Artıq Ermənistan tərəfi elə bir qorxu və səksəkə içindədir ki, hər yerdə özünə qarşı təhlükə olacağını hiss edir.

Bunu guya Xankəndi şəhəri üzərində Azərbaycana məxsus pilotsuz uçuş aparatının (PUA) vurulması ilə bağlı Ermənistan mətbuatında yer alan xəbərlərlə bağlı AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildiriblər.

Nazirliyin açıqlamasında qeyd olunub ki, bundan əvvəl Azərbaycanın xüsusi təyinatlıları, döyüş təyyarələri və digər vasitələrini dörd bir yanda görən ermənilər indi də pilotsuz uçuş aparatlarımızın xəyali ərazilərdə hərəkəti barədə vahiməsaçan bəyanatlar verirlər. Hər hansı beynəlxalq nümayəndə heyəti Xankəndinə gələndə erməni tərəfi istisna deyil ki, məhz bu cür fırıldağa əl ataraq istifadəyə yararsız, "vurduqları" PUA-nın guya Azərbaycana məxsusluğunu iddia etməklə bədbəxt görkəm alaraq, göz yaşı içində onlardan imdad diləyirlər.

Ermənistan tərəfi bu cür yalan və əsassız məlumatları yaymaqla beynəlxalq təşkilatların nümayəndələrini, dünya ictimaiyyətini çaşdıraraq törətmək istədikləri təxribatlara zəmin yaratmaq məqsədi güdürlər.



Cəbhədən reportaj

# Ordumuzun aprel zəfəri

***Yenə də cəbhə bölgəsinə ezamiyyətə gedirəm. Amma bu gediş əvvəlkilərdən fərqlidir. Səhra paltarını da eynimə xoş ovqatla geyinirəm. Bir neçə gündür ordumuzun cəbhə boyu zəfər yürüşü başlayıb.***

Ermənilər atəşkəs rejimini pozaraq həm mövqelərimizi, həm də yaşayış məntəqələrimizi atəşə tuturdular. Mülki adamlar arasında ölən və yaralananlar vardı. Düşməni susdurmaq, mülki vətəndaşların həyatını xilas etmək üçün ordumuzun hissələri əks-həmlə ilə qəsbkarları geri oturdublar. Tərtər rayonunun bəzi kəndləri, həmçinin Füzuli rayonunun ərazisindəki Lələtəpə yüksəkliyi erməni işğalçılarından azad edilib.

Çoxdan bəri gözlədiyimiz, həsrətində olduğumuz günlər həyatımıza qədəm qoyub. Erməni qəsbkarları ordumuzun gücü, qüdrəti qarşısında duruş gətirə bilməyərək 100-dən çox canlı qüvvəsini, artilleriya qurğularını, zirehli texnikalarını itirərək geri çəkilməyə, daha doğrusu, biabırcasına qaçmağa məcbur oldu. Ordumuz gücünü, qüdrətini, bir daha düşmənə göstərdi.

İllərdən bəri sıralarında xidmət etdiyim doğma ordumuzun zəfər yürüşü ürəyimi sevinclə doldurdu. Qürurla, fərəh hissləri ilə torpaqlarımızı erməni işğalçılarından azad etmiş zabit və əsgərlərlə görüşə yola düşürəm.

Həm avtobusda, həm də metroda sərnişinlər daha çox ordumuzun uğurlarından danışırdı. Hamının üzündə sevinc, gözündə fərəh var idi. Hiss edirdim ki, Silahlı Qüvvələrimizin uğurlarından danışan bu insanların ürəkləri ön xətdə vuruşan zabit və əsgərlərimizin yanında döyünür. Ordumuzun aprel zəfərindən ruhlanan şəhər sakinləri ətrafında olan zabit və əsgərlərə daha böyük diqqət və qayğı ilə baxırlar.

## “Yenə də döyüşməyə hazıram”

Qatarda hərbçilər çox idi. Hamı ön xəttə, zabit və əsgərlərin yanına tələsirdi. Söhbət ancaq ordumuzun uğurlarından gedirdi. Adamlar zəng vurur, Silahlı Qüvvələrin apardığı uğurlu döyüşlər barədə bir-birilərinə məlumat verərək sevinirdilər.

Kupe yoldaşımız Nazim Əhmədov keçmiş hərbçidir. Bir neçə il əvvəl təqaüdə çıxıb. Qarabağ müharibəsində iştirak edib. Ordumuzun uğurlarından söz açan Nazim dedi ki, Silahlı Qüvvələrimizin işğalçıların tapdağı altında olan bir neçə kəndi və yüksəklikləri azad etməsini eşidəndə çox sevindim. Axı, mən özüm də zabit kimi bu ordunun sıralarında xidmət etmişəm. Bu şad xəbər məni göylərə qaldırdı. İnanırdım ki, gündən-günə güclənən ordumuz mütləq günlərin birində düşmənə öz gücünü göstərəcək. Budur, o günləri gördük, qələbə sevincini yaşadıq. Bu xəbərə, bu zəfərə hamı sevinir. Xalq öz ordusunu sevir, ona inanır. Bu gün hamı Silahlı Qüvvələrimizə dəstəkdir. Yaşım çox olsa da, özümü güclü, qüvvətli hiss edirəm. Qələbəmizin davamlı olması üçün artilleriyaçı kimi həmişə döyüşə hazıram. Ermənı qəsbkarları torpaqlarımızı tərk etməyincə, son nəfərinə kimi məhv edilməlidir.

## Hamı ayaq üstdədir

Səhərin alatoranında cəbhə bölgəsində yerləşən dəmiryol stansiyasında qatardan düşərkən, top atəşlərini eşitdim. Güclü gurultu yeri-göyü titrədirdi. Hiss olunurdu ki, ön xətdə gərgin döyüşlər gedir. Ordumuzun hissələri atəşkəs rejimini pozmuş düşməni susdurmağa çalışır. Bizi hərbi hissəyə aparan taksi sürücüsü dedi ki, dünən top səsləri daha güclü idi. Görünür ki, düşmən zəifləyib geri çəkilir, ordumuzun əks-həmləsi qarşısında duruş gətirə bilmir.

Hərbi hissədə də böyük canlanma hiss etdik. Hamı ayaq üstədir. Rabitə qurğuları bir an olsun belə susmur. Ön xətdən yeni məlumatlar verilir.

Vaxt, zaman ötüb keçir. Yavaş-yavaş göyün üzündən qaranlıq çəkilir. Bayaqdan səmanın ənginliklərində sayrışan ulduzlar bir-bir görünməz olur. Səhər gözlərini açıb işıqlaşan kimi quşlar cəh-cəh vurur. Havadan yazın qoxusu, baharın ətri gəlir. Ağ çiçəyə bürünmüş ağaclar təbiətə yaraşıq verir. Bu gözəlliyə aşiq olan quşlar isə nəğmə oxuyur.

Bir azdan hərbi hissənin nəzarət-buraxılış məntəqəsinin qarşısında bir mülki avtomobil dayanır. Məlum olur ki, sadə bir vətəndaş hərbçilərə siqaret gətirib. Adını öyrənməyə çalışırıq. Amma o adının haradasa yazılmasını istəmədən deyir ki, qələbə naminə hamı əlindən gələni etməlidir.

## Şükürlər ki, bu sevinci də yaşadıq

İrəli getdikcə yollarımız qısalır. Qarşıdakı döngəni keçib ön xətdə yerləşən hərbi hissəyə yaxınlaşırıq. Topların gurultusu burada daha aydın eşidilir. Yaxınlıqda yaşayan sakinlər də hündür təpəliklərin üstünə çıxaraq atəş səsləri gələn istiqamətlərə boylanırlar...

Budur, düşməni diz çökdürüb Talış kəndini, həmçinin bir neçə strateji yüksəkliyi qəsbkarlardan azad edən şəxsi heyətin yanına gəlib çatırıq. Onlar döyüşdən yenicə çıxıblar.

Səhər ertədən Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev bizimlə görüşür və müvafiq tapşırıqlarını verir. Müxtəlif istiqamətlərə yola çıxırıq.



## Qələbə naminə hamı əlindən gələni etməlidir

Yolüstü "N" hərbi hissəsinə baş çəkib zabit və əsgərlərlə görüşürük. Hərbçilərin ovqatı yüksəkdir. Ordumuzun uğurlu əməliyyatlarına hamı ürəkdən sevinir. Onlarla söhbət edərkən öyrəndim ki, hər üç mobil operator - həm Azərsell, həm Baksel, həm də Nar mobil cəbhə bölgəsində xidmət edən hərbçilərə pulsuz dəqiqələr hədiyyə edib. Bu çox alqışlanmalı addımlardır.

Qarşımda ordumuzun ilk uğurunu həyata keçirən, xalqımıza sevinc bəxş edən Azərbaycan zabiti, Azərbaycan əsgəri dayanıb. Ürəyim fərəh hissi ilə döyünür. Şükürlər olsun ki, bu sevinci yaşadıq, bu anları gördük.

Döyüşdən yenicə çıxmış əsgərlərin çöhrəsindən yorğunluq sezilsə də, üzlərində təbəssüm, gözlərində bir dünya sevinc var. Bu cəsur oğullar xalqımıza xoş anlar, xoş günlər yaşadıblar. Azərbaycan Ordusunun yeni tarixini yazıblar. Elə bir tarix ki, həmişə şərəflə xatırlanacaq.

## Azərbaycan əsgəri qüdrətlidir, məğlubedilməzdir

Mayor Qafqaz Əsgərov döyüşdə fərqlənən zabitlərdən biri ilə bizi tanış edir. O, baş leytenant Nihad Bayramovdur. Zabit son əməliyyatda hünər və igidlik göstərib. Savaşın həlledici anında kürəyindən yaralansa da, döyüş yerini tərk etməyib.

Baş leytenant son döyüşdən ətraflı danışaraq dedi:

- Neçə müddət idi erməni qəsbkarları həm yerləşdiyimiz bölgənin yaşayış məntəqələrini, həm də postlarımızı atəşə tuturdular. Aprelin 1-də düşmən postlarımızı gecədən güclü atəşə tutdu. Bizə düşmənin təhlükə mənbələrini birdəfəlik susdurmaq əmri verildi. Bir azdan ermənilər silah-sursatlarını da atıb qaçmağa başladılar. Biz arxalarınca düşüb onları təqib etdik. Düşməni qova-qova bir neçə mövqeyi ələ keçirdik. Ermənilərin mövqelərində xeyli silah-sursat tökülüb qalmışdı. Postlarda vüzual görüntü üçün kameralar quraşdırılmışdı. Qəsbkarlar bizim belə güclü həmləmizi gözləmirdilər.

Qısa müddətdə bir-birinin ardınca qarşı tərəfin dörd postunu aldıq. Sonuncu mövqedə möhkəmlənib dayandıq.

Səhər tezdən hava işıqlaşan kimi düşmən üzərimizə hücuma keçdi. Gərgin döyüş başlandı. Bir addım da olsun geri çəkilmədən vuruşurduq. İşğalçıların müqaviməti yavaş-yavaş qırılırdı. Mövqeyimi dəyişmək istəyəndə məni kürəyimdən vurdular. Yaralansam da, geri çəkilmədim. Döyüşümü davam etdirdim. Tutduğumuz mövqeyi sonadək qoruyub saxladıq. Ara sakitləşəndə döyüşçü yoldaşlarım məni hospitala çatdırdılar. Xoşbəxtlikdən yaram yüngül idi. Ertəsi gün əsgərlərimin yanına döndüm. Düşmən bir neçə dəfə cəhd etsə də, itki verib geri çəkildi. Ümumiyyətlə, qəsbkarlar bu istiqamətdə ağır məğlubiyyətə düçar oldular. Həm xeyli canlı qüvvə, həm də texnika itirdilər.

Əsgərlərimiz döyüş zamanı üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəldilər. Onlar düşmənə göstərdilər ki, Azərbaycan əsgəri çox güclü və məğlubedilməzdir.

## Düşməndən götürülmüş silahlar

Talış kəndi uğrunda gedən döyüşlərdə ermənilər silah-sursatlarını atıb qaçmışdılar. Əsgərlərimiz isə bu silahları qənimət kimi götürüb hərbi hissəyə gətiriblər. Bir vaxtlar düşmənlərin əlində olan silahlar indi səliqə ilə taborun həyətinə düzülmüşdü.

Baş leytenant Nihad Bayramovla söhbətdən sonra silahlara baxdıq. Bir neçə qumbaraatan, avtomat silahları idi. Kiçik yeşiklərdə isə xeyli sayda əl qumbaraları, patronlar var idi. Yeşiklərdəki erməni dilində olan kitabçalar da diqqətimizi cəlb etdi. Dəftərlərin birində nəsə bir siyahı vardı.

Bir vaxtlar düşmənin əlində olan silahlar qarşımızda yerə düzülüb. İnanıram ki, bir gün düşmənlər qarşımızda boynubükük, məğlub görkəmdə dayanacaqlar...

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

## Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin rəisi tibb xidməti general-mayoru Natiq Əliyev:

# Düşmən tərəfindən sanitar tibb maşını atəşə tutulub

Qoşunların təmas xəttində hərbi əməliyyatların dayandırılması barədə tərəflərin əldə etdiyi razılaşmaya baxmayaraq, Ermənistan silahlı qüvvələrinin bölmələri müxtəlif istiqamətlərdə mövqelərimizi və yaşayış məntəqələrimizi atəşə tutmaqda davam edir. Aprelin 7-də cəbhənin Ağdərə-Goranboy istiqamətində düşmən tərəfindən atəşkəsin növbəti dəfə pozulması nəticəsində yaralanan və xəsarət alan mülki əhalini təxliyyə edən sanitar tibb maşını atəşə tutulub.

Hadisə nəticəsində sanitar maşına ciddi ziyan dəysə də, xoşbəxtlikdən xəsarət alan olmayıb. Ermənilər tərəfindən törədilmiş bu hadisə beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması kimi dəyərləndirilir.




* * *

Müdafiə Nazirliyinin Tibb Baş İdarəsində qaynar xətt fəaliyyətə başlayıb.

Müdafiə Nazirliyinin Tibb Baş İdarəsi bildirir ki, son zamanlar cəbhə boyu gedən döyüşlər zamanı şəxsi heyət arasında yaralanan və xəsarət alan hərbi qulluqçulara bütün tibb müəssisələrində lazım olan hər bir tibbi xidmət yüksək səviyyədə göstərilir.

Yaralanan hərbi qulluqçuların vəziyyəti barədə operativ məlumat almaq üçün Silahlı Qüvvələrin Baş Klinik Hospitalında sutka ərzində fəaliyyət göstərən 406-87-41 nömrəli qaynar xətt yaradılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Həkimlər ön sıralarda...




***Aprelin əvvəlində cəbhə xəttində Azərbaycan Ordusunun şəxsi heyətinin qazandığı qələbə cəmiyyətimizin bütün təbəqələrində yüksək əhval-ruhiyyə, xoş ovqat yaradıb. Döyüşlərin ilk günündən hər kəs ordumuza dəstək nümayiş etdirib, minlərlə insan cəbhə bölgələrinə axışaraq düşmənlə savaşa atılmaq istəklərini bildirib.***

Silahlı Qüvvələrimizin şəxsi heyətinə dəstək olanlar arasında yenə də müqəddəs peşə sahibləri - cəfakeş həkimlər daha çox fərqləniblər. Səhiyyə Nazirliyindən redaksiyamıza verilən məlumata görə, düşmənlə təmas xəttinə yaxın bölgələrdə yerləşən tibb müəssisələrinə yaxından kömək göstərilməsi şəxsən səhiyyə naziri Oqtay Şirəliyevin diqqətində olub. Nazirliyin rəhbərliyi yaralı döyüşçülərə və düşmən gülləsinə tuş gələn mülki insanlara yerindəcə kömək göstərilməsi üçün yüksək ixtisaslı mütəxəssislərdən ibarət 6 həkim briqadasını cəbhə bölgələrinə ezam edib. Bu briqadalara travmatoloq, cərrah, anestezioloq-reanimotoloqlar və digər zəruri ixtisas sahibləri daxil edilib ki, onlar da yüksək səviyyəli diaqnostik və cərrahi əməliyyatları istənilən şəraitdə uğurla icra etmək imkanlarına malikdirlər.

Bundan əlavə, Səhiyyə Nazirliyi tərəfindən hərbi hospitallara kömək göstərilməsi də nəzərdə tutulub. Bu məqsədlə qanəvəzedici-dezinfeksiyaedici preparatlar, sarğı və gips materialları, habelə digər zəruri tibbi ləvazimatlar əlavə olaraq cəbhə bölgələrinə göndərilib.

Əlbəttə, vətənpərvər insanların, o cümlədən səhiyyə işçilərinin maddi və mənəvi kömək göstərmək təşəbbüslərini yalnız alqışlamaq lazımdır. Amma bir faktı qeyd etməyi də lazım bilirik ki, Silahlı Qüvvələrimizin müasir hərbi səhiyyəsi bu gün bütün imkanları ilə hərbi qulluqçuların ixtiyarındadır və hər cür yaralıya tibbi yardım göstərməyə qadirdir.

**"Azərbaycan Ordusu"**

# 23 ildən sonra oxunan "Yasin"

## *Azərbaycan əsgərinə qədərsiz ehtiramlarla*

(esse)

Bu yaz bir başqa yazdı...

Dağların dumanı çəkilib...

23 ilin ayrılığı dağların da könül mülkünü çəkilməz dərdlə silələmişdi. Daha qara duman dağların dağ sinəsini sıxmır. Dağlar boyu görünənləri köksünə sıxır...

Bu həndəvərlərdə göy üzü bu qədər gözçəkən, könülaçan olubmu görən? - çiçəklər qönçəsindən boy göstərir, illər uzunu səsi batan bulaqlar coşub-çağlayır, həzin-həzin əsən küləklər kolu kola bağlayır, iki-üç günün içində budaq-budaq uçunan ağaclar tumur-cuqlayıb; bu gəlişin, bu dönüşün həsrətini çəkiblər illər uzunu. Bu ilin yazı çiçəkçiçək gülümsünür Lələ-İlahini güləriz dörüb göyçək-göyçək gülümsünür. Gələnlərə sarı boylanan kol-kos da, dərə-təpə də, bulaqlar da, ağaclar da, ...dili olsaydı, var səsiylə qışqırardı: "Gəldilər! Gedənlərimiz gəl-di!.."...

Lələ-İlahi adıyla tanınan Lələtəpə bir boy da dikəlib elə bil. Alnının qırışığı açılıb. Yüz illərlə camaatın inanc yeriydi. Yüz illərlə quraqlıq olanda camaat bura axışardı - yağış-yağmur ümidiylə müsəllaya çıxardı, Tanrıya dualar edərdi. Göy üzündən yağış süzülüncə qurbanlar kəsilərdi...



23 ildi doğmalarının həsrətindəydi Lələ-İlahi. Doğma səs umurdu, doğma nəfəs umurdu, doğma təmas umurdu. İllərdi yadların ayaq səslərindən çimçəşirdi, yeri qarğıyırdı, göyü qarğıyırdı. Günahsız günahkarlarının getdiyi yollara sarı boylanırdı. Bu neçə ildə dağ səbriylə dözürdü, yan-yörəsində dolaşanları izləyə-izləyə dözürdü, gedənlərin dönüşünü gözləyə-gözləyə dözürdü. Onu bu sıxılcımdan, ağrı-acılardan qurtaranların kimliyini bilməsə də, hər birini "köynəyindən keçirmək" istəyirdi, "Oğul oldular mənə. Mənə oğul olanlar Vətənin oğludu!.."...

Lələ-İlahinin əzizləri bir qədər yaşlaşıb. 23 ilin ayrılığından onların da ürəyi burxulub. Lələ-İlahinin nəfəsini duyanlar pıçıldayır: "Keç günahımızdan, Lələ-İlahi. Dönüşümüz gec oldu..."...

Üç kəndin bir qəbiristanlığı var...

Qəbir daşları yola sarı baxır, baxır. Bu baxışlarda başaçılmaz qınaq da var, gileý də. Neçəsinin sinəsində güllə yerləri görünür. Zamanında səngər olub baş daşları. 23 il əvvəlin döyüşlərində alıblar bu yaraları; baş daşları da yaralı əsgərdi, elə bil...

23 ildi burda Quran səsi eşidilmir. Bu səsə də qəribsəyib baş daşları; hər biri bu səsin tamarzısıdı. Düşmən Lələ-İlahi kimi o daşları da ruhundan uzaqlaşdırmaq istəyirdi. Dözdü, səbr elədi Lələ-İlahi də, baş daşları da. Bu günə ümidlə dözdülər, bu gün üçün dözdülər.

Bir ağsaqqal göy üzünə bir bayatı pıçıldayır:

...dərdi sinə,
Tanıdı dərdi sinə.
Əsgər balam qoymadı,
Canımda dərd isinə!..

Şair-publisist Abdulla Qurbani gözlərini baş daşlarından çəkə bilmir. Kövrəlib. İllərin o üzündən boy göstərən qətiyyətin, cəsarətin nişanələrini görür baş daşlarında. Addım atmaq istəyir, ata bilmir, dayanmaq istəyir, dayana bilmir. Yaxınlaşmaq, tanımadığı Cocuq Mərcanlıların baş daşlarını əzizlərinin baş daşı kimi oxşamaq, əzizləmək istəyir. Könlü qubarlanıb. Qədərsiz sevinc içindədi. Gördüklərindən kövrəlib. Ağsaqqallara baxır. "Gedək..." - deyir. Qəhərlənib. "Yasin oxuyun... Azərbaycan əsgərinin adından..."...



Həmin gün Lələ-İlahiyə yağan yağış gözaydınlığı yağışıydı, duruluq yağışıydı. Yağış gərəyiydimi, gərək deyildimi, göylər bunun fərqində deyildi. Narın-narın yağış yağıb. Göy üzünün nuru ələnibçilənib torpağa. Lələ-İlahi Vətən yolunda canını qurban verənlərin ruhunun nuru bilir yağan yağışı...

"Bu yaz bir başqa yazdı...", Lələ-İlahi! Bu yaz həsrətlilərini gətirdi. Həsrətlilərinin həsrətini bitirdi. Burda uyuyanların ruhu əsgərlərimizin alxışçısıdı. 23 il çəkən intizarı onlar bitirdi. İllərlə bu səmtə baxanda "...elə mən də sənin kimi, daşam, baş daşı, baş daşı" - deyərdin. İndi haray çək. Qoy səsin Xudafərinin qubarını itirsin, Xətailərin yerişinə, gəlişinə qucaq açsın. Üzü böyük Qələbəyə gedənlərimizin uğuruna yol olsun...

Abdulla Qurbani qəbiristanlığın sonuncu qəbrinin yanında ayaq saxlayır. Lələ-İlahiyə sarı boylanır, göy üzünə baxır. Gəldi, gördü, könlü təlləndi. İndi nə keçir könlündən? Quran səsini Şuşada da, Xankədidə də, Laşında da, Kəlbəcərdə də, Ağdamda da, Füzulidə də, Zəngilanda da eşitməyin təşnəsidi. Düşüncələri bir bayatıya köklənib:

...ya daşa,
Ya qaynaya, ya daşa.
Can verərik, qoymarıq,
Yal-yamacı yad aşa!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Veteranlarımız işğal altındakı torpaqlarımızı azad etmək üçün hər an cəbhəyə getməyə hazırdırlar




*Biz veteranlar düşmənin işğalı altındakı torpaqlarımızı azad etmək üçün Ali Baş Komandan İlham Əliyevin əmri ilə əsgərlərimizlə çiyin-çiyinə döyüşməyə həmişə hazırıq. Biz Ermənistanın atəşkəs rejimini pozmasının dünya birliyi, beynəlxalq təşkilatlar tərəfindən pislənməsini, erməni hərbi birləşmələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmasını tələb edirik.*

AZƏRTAC xəbər verir ki, bu fikir aprelin 8-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında "Biz Azərbaycan əsgərinə, Ali Baş Komandanımıza və parlaq qələbəmizə inanırıq" mövzusunda keçirilmiş tədbirdə səsləndirilib.

Tədbirdə Ermənistan silahlı qüvvələrinin törətdikləri növbəti təxribat nəticəsində həlak olmuş hərbçilərimizin və mülki şəxslərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Respublika Veteranlar Təşkilatının sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayev çıxış edərək bildirib ki, Ermənistan silahlı bölmələri aprelin 2-dən etibarən qoşunların təmas xəttində atəşkəs rejimini pozaraq cəbhə xəttində ciddi gərginlik yaradıb. Silahlı Qüvvələrimizin cavab tədbirləri nəticəsində cəbhə boyu ağır itkilərə məruz qalan ermənilər uğursuzluqlarının əvəzini mülki əhaliyə ziyan vurmaqla çıxmağa çalışıb. Ancaq Azərbaycan Ordusunun dəqiq cavab atəşləri ilə düşmənin yüzlərlə hərbi qulluqçusu, o cümlədən yüksək rütbəli zabitləri, çoxlu sayda zirehli texnikası məhv edilib, komanda-qərargah məntəqələri darmadağın olunub. Strateji cəhətdən üstün mövqelər, o cümlədən bir neçə yüksəklik Silahlı Qüvvələrimizin nəzarəti altına keçib. Böyük itkilər verən erməni hərbçiləri vahimə içində silah-sursatlarını ataraq öz mövqelərindən qaçıb.



Qeyd edilib ki, dörd günlük döyüşlər Azərbaycan dövlətinin və xalqının əzəli ərazilərinin, o cümlədən Qarabağın işğalı ilə heç vaxt barışmayacağını bütün dünyaya göstərdi. Bu, həmçinin 20 ildən artıq müddətdə davam edən atəşkəs dövründə ilk dəfə dünyaya, işğalçıya, onun havadarlarına Azərbaycan əsgərinin gücünü, qələbə əzmini nümayiş etdirib.

Dadaş Rzayev əminliklə bildirib ki, Qarabağ tezliklə işğaldan azad ediləcək və Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq.

Tədbirdə müharibə, əmək və Silahlı Qüvvələr veteranları, ictimai təşkilatların nümayəndələri, ziyalılar, gənclər və mətbuat nümayəndələri iştirak ediblər.

*Ölkəmizin hər yerində olduğu kimi, Göygöl rayonunda da məktəbli və yeniyetmələrin vətənpərvərlik tərbiyəsinə yüksək diqqət və qayğı göstərilir. Bütün təhsil ocaqlarında bu istiqamətdə məqsədyönlü iş aparılır. Əksər təhsil müəssisəsinə Vətənimizin ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalanların adları verilib. Onların həyat və döyüş yollarından bəhs edən guşələr yaradılıb. Gənc nəsil Milli Qəhrəmanlar Etibar Hacıyevin, Elşad Məmmədovun, Mehman Sayadovun və digər şəhidlərin xatirəsinə böyük ehtiram göstərilir. Məktəblilər bölgədə yerləşən hərbi hissələrdə ordu həyatı ilə yaxından tanış olurlar.*

# "Bu günün məktəblisi sabahın əsgəridir"

Ənənəyə çevrilən "Şahin" hərbi idman oyununda da məktəblilər böyük həvəslə iştirak edirlər. Dövlət təşkilatlarının dəstəyi ilə keçirilən hərbi oyunda şagirdlər bilik və bacarıqlarını, ordu həyatına hazırlıqlarını nümayiş etdirirlər. Növbəti rayon birinciliyi də yüksək səviyyədə təşkil olunmuşdu. Təşkilat Komitəsinin üzvü zabit Taleh Mehdiyev məktəblilərin oyuna hazır olmaları barədə polkovnik-leytenant Natiq Əhədova raport verdi. Sonra birinciliyə həsr olunmuş mitinq açıq elan olundu. Dövlət himni səsləndirildi. Hərbi hissənin zabiti bildirdi ki, keçirilən mədəni-kütləvi tədbirlər, hərbi oyunlar ordu ilə xalq birliyini əks etdirir. "Azərbaycan xalqı öz ordusuna, onun qüdrətinə inanır. Hər birimiz fəxr edirik ki, müstəqil dövlətimizin zabitləri və əsgərləriyik. Bu gün keçirilən oyunda iştirak edən məktəblilər də gələcəyin zabitləri, əsgərləri olacaqlar.

Gənclər və İdman idarəsinin rəisi Zaur Abbasov isə çıxışında bildirdi ki, vətənpərvərlik tərbiyəsinin gücləndirilməsinə Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev tərəfindən daim diqqət və qayğı göstərilir. "Bu istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirilir. Ötən il rayonumuzda Müdafiə Nazirliyi və İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin 120 illiyinə həsr olunmuş "Xan Naxçıvanski dağında sərkərdə yubileyi" mədəni-kütləvi tədbir də ordu ilə xalqın birliyinə çevrildi. Məlumdur ki, bu günün məktəblisi, yeniyetməsi sabahın əsgəridir. Buna görə də çalışmalıyıq ki, ölkəmizin gələcək qurucularını qəhrəmanların, sərkərdələrin davamçıları kimi yetişdirək və bu sahədə öhdəmizə düşən vəzifələrə fədakarlıqla əməl edək. Bugünkü yarış da bu məqsədə xidmət edir. İnanıram ki, məktəblilərimiz yüksək bilik, bacarıq nümayiş etdirəcəklər."



Təhsil şöbəsinin müdiri Elbrus Atayev, rayon İcra Hakimiyyətinin məsul işçisi Babək Rəsulov və başqaları da "Şahinlər"ə uğurlar arzuladılar.

Sonra yarış keçirildi. Məktəblilər oyunun qaydalarına uyğun olaraq təyin olunmuş yerlərdə sıra hazırlığı, darağa patron doldurulması və boşaldılması, avtomatın sökülməsi və yığılması, tüfəngdən hədəfə atəş açmaq, fiziki hazırlıq, maneələrin dəf edilməsi, kəndir vasitəsilə təhlükəli zonanın dəf edilməsi və mülki müdafiə üzrə tapşırıqları yerinə yetirdilər. Qalib komanda zona birinciliyində iştirak etmək hüququ qazandı. Fərqlənən komandalara qiymətli hədiyyələr, fəxri fərmanlar təqdim olundu.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

# Xarici hərbi xronika

## Video-nəzarət sistemi

Rusiyanın "Şvabe" müəssisəsi tərəfindən çaylarda və dənizlərdə gəmilərin qadağan olunmuş ərazilərdə hərəkətinə nəzarət etmək üçün video-nəzarət sistemi hazırlanıb. Bu yeni sistem su akvatoriyalarına nəzarəti 1.5-2 dəfə artıracaq, obyektləri aşkar etməyə imkan verəcək. Bundan başqa, qurğunu idarə edən operator tərəfindən obyektlərin coğrafi koordinatları da təyin edilə biləcək.

## Elektrik transmissiyalı piyada döyüş maşını

"Traktor zavodu" konserninin "TASS" agentliyinə verdiyi məlumatına görə, bu il elektrik transmissiyalı piyada döyüş maşınının ilk nümunəsi istehsal ediləcək. Mütəxəssislərin fikrincə, elektrik transmissiyası yanacağın az sərf edilməsinə, hərəkət mexanizminin yaxşılaşdırılmasına imkan verəcək. Zavodda onu da qeyd ediblər ki, elektrik transmissiyalı maşınları teplovizorlar vasitəsilə aşkar etmək çox çətindir.

## "Pantsir-S1" zenit-raket kompleksi

"Pantsir-S1" Rusiyanın özüyeriyən zenit-raket-top kompleksidir. 1994-cü ildə hazırlanıb və ordunun silahlanmasına qəbul edilib. Kompleks mülki və hərbi obyektləri müasir hava hücumu vasitələrindən, həmçinin suüstü və sualtı təhlükələrdən qorumaq üçün nəzərdə tutulub. O, üç operatorla idarə olunur. Hava hücumundan müdafiə avtomatik toplar və idarə olunan raketlərlə həyata keçirilir. Əsas xüsusiyyəti ondadır ki, birbirindən asılı olmayan iki tuşlama vasitəsi - radar və opto-elektron sistemi vardır. Xaricə ixrac edilməsi üçün qiyməti 14.67 milyon ABŞ dolları təşkil edir. Əlcəzairin, Braziliyanın, İranın, Mərakeşin, Birləşmiş Ərəb Əmirliyinin, Yəmənin, Suriyanın və s. ölkələrin silahlanmasına daxil edilib.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks);<br>Baş redaktorun müavini: (012) 510-64-27;<br>Məsul katib: (012) 510-71-98<br>Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Əbülfət QASIMOV | Nərimanov Rayon Xəzinədarlığı<br>Kod: 200189<br>VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. | Lisenziya № 361<br>Sifariş № 158<br>Nüsxə 4700 |